www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 14 yanvar 2016-cı il Cümə axşamı № 9 (6330) Qiyməti 50 qəpik

**Xəbər**

**Dərmanların qiymətini bahalaşdıran daha bir şirkət rəhbəri tutuldu**

yazısı səh.14-də

**Gündəm**

**Bölgələrdə bahalaşma əleyhinə aksiyalar keçirilir**



Siyəzən, Lənkəran, Füzuli, Ağsuda yüzlərlə sakin qiymət artımına etiraz etdi; saxlanılanlar arasında müxalifətçilər də var

yazısı səh.3-də

**Vətəndaşlar da, banklar da borc içində batır**

yazısı səh.4-də

**Müxalifət birlik üçün daha bir şansı qaçırdı**

yazısı səh.6-da

*Qabil Hüseynli:*

**"Qiymətləri artıran mafiyalaşmış qruplar var"**

yazısı səh.4-də

**İqtidar-müxalifət dialoqu məsələsində fikir ayrılığı**

yazısı səh.7-də

**ABŞ-ın yeni Qarabağ planı - ermənilərə sürpriz hazırlanır?**

yazısı səh.8-də

**Rauf Mirqədirovun həyatı ilə bağlı ilginc faktlar ortaya çıxdı**

yazısı səh.10-da

*Zahid Oruc:*

**"Azərbaycanda vəsaitləri özünə çəkən istənilən tədbir insanlarda qıcıq doğura bilər"**

yazısı səh.12-də

**Valyutadəyişmə məntəqələrinin lisenziyaları ləğv olundu**

yazısı səh.12-də

**6 müxalif partiya mitinq keçirəcək**

yazısı səh.2-də

**"Günəşli" faciəsindən 40 gün keçdi: itkin düşən neftçilər anıldı**

yazısı səh.2-də

## Tiflisdə bağlı qapılar arxasında gərgin müzakirələr

# GÜRCÜSTANDAN AZƏRBAYCANA QARŞI QAZ XƏYANƏTİ

SOCAR prezidenti qəfil Tiflisə getdi; ən ağır günlərində bu ölkəyə yardım əlini uzadan Azərbaycana münasibət niyə dəyişib?; **Vahid Əhmədov:** "Ola bilər ki, Tiflis Rusiyanın oyununda iştirak edir"




yazısı səh.9-da

## General Vidadi Məmmədovun Vergilər Nazirliyindəki gizli qrupu cinayətlərini davam etdirir

"MTN işi" ilə bağlı vəzifəsindən uzaqlaşdırılan departament rəisinin pulyığanı Nəriman Məcidovun nazirlikdə özfəaliyyətini dayandırmamasına dair ilginc iddialar var; VN-in "Çovdarovu" iş başında...

yazısı səh.3-də



*Bahar Muradova:*

**"Əgər vəziyyət gərginləşəcəksə, o iş adamlarının nailiyyətləri də heç olacaq"**

yazısı səh.5-də



*Afaq Başirqızı:*

**"Zəmanəni biz fırladırıq, zəmanə bizi yox"**

yazısı səh.11-də



**Əli Abbasov və həbs olunan rabitəçi məmurlar YAP-dan çıxarılır**

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 9 (6330) 14 yanvar 2016



## İlham Rəhimov 65 - bu gün Azərbaycanın görkəmli alimi və iş adamının yubileyidir

**Bu gün Azərbaycanın görkəmli hüquq alimi, professor İlham Rəhimovun 65 yaşı tamam olur.**

**İlham Məmmədhəsən oğlu Rəhimov14 yanvar 1951-ci ildə Tovuz rayonunda anadan olub. 1970-1975-ci illərdə Leninqrad Dövlət Universitetinin hüquq fakültəsində təhsil alıb, 1975-1978-ci illərdə Leninqrad Dövlət Universitetinin cinayət hüququ kafedrasının əyani aspirantı olub, 1978-ci ildə isə hüquq elmləri namizədi elmi adını alıb. 1988-ci ildə Leninqrad Dövlət Universitetində doktorluq dissertasiyası müdafiə edib.**

**Bütün ömrünü Azərbaycan hüquq elminə həsr etmiş, İlham Rəhimov postsovet məkanında cinayət hüququ sahəsində ən gənc elmlər doktoru olub. O, 1996-cı ildən professor elmi adını daşıyır.**

**İlham Rəhimov həm də xeyriyyəçi iş adamıdır. İndiyə qədər minlərlə insana maddi-mənəvi dəstək olub, Azərbaycan adına tarixdə qalacaq işlər görüb. Heç zaman da bu xeyriyyəçiliyinin, gördüyü işlərin reklamına cəhd göstərməyib. Rusiya prezidenti V. Putinlə olan şəxsi dostluq münasibətlərindən isə hər zaman Azərbaycan və azərbaycanlıların faydalanmasına çalışıb.**

**İlham Rəhimov həm də mediaya açıq fiqurdur. Onun ranqında olan iş adamlarının böyük əksəriyyəti mətbuatdan, jurnalistlərdən qaçdığı halda, o, gündəmdə olan məsələlərə, qlobal proseslərə münasibət bildirməkdən, müzakirələr, polemikalar açmaqdan çəkinməyib. Görünür, bu onun iş adamından daha çox elm xadimi, alim olması ilə bağlıdır. İlham Rəhimov kökəni elm olan iş adamıdır, desək, yanılmarıq. O, həm də bizim - "Yeni Müsavat" media qrupunun müsahiblərindən, eyni zamanda sədaqətli oxucularımızdandır.**

**"Yeni Müsavat" media qrupu olaraq Azərbaycanın görkəmli elm xadimini, dünya miqyasında tanınan və qəbul olunan alimimizi, iş adamını bu əlamətdar tarix - 65 illik yubileyi münasibətilə ürəkdən təbrik edirik. Ona cansağlığı, daha böyük uğurlar və uzun, bərəkətli ömür arzulayırıq.**

❑ **Rauf Arifoğlu və "Yeni Müsavat" media qrupu**

## Cahangir Hacıyev təcridxanaya qayıtmaq istəyir

**Ötən il dekabrın 30-da 1 saylı Bakı İstintaq Təcridxanasından istintaq hərəkətləri ilə əlaqədar Daxili İşlər Nazirliyinin (DİN) Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə gətirilən Azərbaycan Beynəlxalq Bankının İdarə Heyətinin sabiq sədri, hazırda həbsdə olan Cahangir Hacıyev hələ təcridxanaya geri qaytarılmayıb.**

Bu barədə «Trend»ə C.Hacıyevin vəkili Aqil Layicov məlumat verib. Vəkil bildirib ki, müvəkkili 10 gün müddətinə Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə gətirilsə də, hələ təcridxanaya qaytarılmayıb: "Bununla bağlı artıq Nərimanov Rayon Məhkəməsinə müraciət etmişik. Yanvarın 18-də Nərimanov Rayon Məhkəməsində hakim Turqay Hüseynovun sədrliyi ilə iddiamıza baxılacaq".

Xatırladaq ki, C.Hacıyev Cinayət Məcəlləsinin 179.3.2 (külli-miqdarda mənimsəmə), 308.2 (Vəzifə səlahiyyətlərindən sui-istifadə; ağır nəticələrə səbəb olduqda), 178 (dələduzluq), 178.3.2 (külli miqdarda ziyan vurmaqla törədildikdə), 179 (Mənimsəmə və ya israf etmə), 179.2.3. (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə), 309 (Vəzifə səlahiyyətlərini aşma) və 312-ci (Rüşvət vermə (aktiv rüşvətxorluq) maddələri ilə ittiham olunaraq barəsində Nərimanov rayon məhkəməsinin qərarı ilə 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.50 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# Rayonlarda keçirilən aksiyalarda 55 nəfər saxlanılıb

**2016-cı il 12-13 yanvar tarixlərində Siyəzən rayonunun bir qrup sakini tərəfindən şəhərin mərkəzi prospekt və küçələrində qanunvericiliklə müəyyən edilmiş qaydada razılaşdırılmayan yürüş təşkil edilib.**



Baş Prokurorluğun və DİN-in mətbuat xidmətlərinin birgə məlumatında bildirilir ki, ictimai qaydanı kobud surətdə pozan aksiya iştirakçıları hakimiyyət nümayəndələrinin qanuni tələblərinə tabe olmayaraq nəqliyyatın, müəssisə, idarə və təşkilatların normal fəaliyyətinin pozulmasına səbəb olan qanunazidd hərəkətlər törədiblər: "CM-in 186.2.2, 233 və 315.2-ci maddələri ilə cinayət işi başlanılıb, hüquqazidd hərəkətlərə yol vermiş 55 nəfər saxlanılıb.

Nəticədə xidməti vəzifələrini yerinə yetirən polis əməkdaşlarına qarşı həyat və sağlamlığı üçün təhlükəli olan zor tətbiq edilib, onlara müxəlif dərəcəli bədən xəsarətləri yetirilib, ümumi təhlükəli üsulla polisin iki xidməti avtomaşını zədələnib.

Rayon sakinlərinin konstitusion hüquqlarının qorunması və təhlükəsizliyinin təmin edilməsi məqsədilə polis və daxili qoşun qüvvələrinin gördüyü qanuni tədbirlərlə asayiş bərpa olunub, hüququzidd hərəkətlərə yol vermiş 55 nəfər saxlanılıb.

Törədilmiş əməllərdə ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və belə hərəkətlərdə fəal iştirak etmə, özgə əmlakını qəsdən zədələmə, hakimiyyət nümayəndələrinə həyat və sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə müqavimət göstərmə cinayətlərinin tərkib əlamətləri olduğundan fakt üzrə Baş Prokurorluq tərəfindən CM-nin 186.2.2, 233 və 315.2-ci maddələri ilə cinayət işi başlanılıb, istintaq aparılır.

Saxlanılmış şəxslərdən bir neçə nəfəri cinayət məsuliyyətinə cəlb edilib, həmçinin əməllərində inzibati xəta tərkibi olan şəxslər barəsində müvafiq tədbirlər görülüb.

Hadisə nəticəsində dövlətə və vətəndaşlara vurulmuş ziyanın həcmi, polis əməkdaşlarına yetirilmiş bədən xəsarətlərinin ağırlıq dərəcəsi və sair xüsusatların müəyyənləşdirilməsi məqsədilə ekspertizalar təyin edilib.

Həyata keçirilən ilkin prosesual araşdırmalarla məlum olub ki, Siyəzən, Lənkəran, Füzuli, Ağcabədi, Ağsu şəhər və rayonlarında törədilmiş və ölkədə ictimai asayişin pozulmasına hesablanmış qanunazidd əməllər AXCP və Müsavat Partiyasının fəalları, həmçinin bir sıra radikal və dini ekstremist qüvvələr tərəfindən təşkil edilib.

Bir daha nəzərə çatdırılır ki, dünyada baş vermiş iqtisadi böhranın ölkəmizə mənfi təsirlərinin neytrallaşdırılması istiqamətində dövlət başçısının birbaşa nəzarəti altında hökumət tərəfindən həyata keçirilən davamlı tədbirlərə ziyan gətirən və respublikada ictimai asayişin, sabitliyin pozulmasına, vətəndaşların təhlükəsizliyinə yönəlmiş bütün hüququzidd hərəkətlərin qarşısı qanunla müəyyən edilmiş qaydada bundan sonra da qətiyyətlə alınacaq".



## İlham Əliyev gömrüklə bağlı fərman imzaladı

**Prezident İlham Əliyev "Gömrük sahəsində nəzarətin həyata keçirilməsi ilə əlaqədar bəzi yoxlamaların sadələşdirilməsi haqqında" Prezidentin 2015-ci il 22 oktyabr tarixli 656 nömrəli fərmanında dəyişiklik edilməsi barədə fərman imzalayıb.**

Dövlət başçısının yeni fərmanına əsasən, "Gömrük sahəsində nəzarətin həyata keçirilməsi ilə əlaqədar bəzi yoxlamaların sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 22 oktyabr tarixli 656 nömrəli fərmanının 1-ci hissəsi ləğv edilir.

Qeyd edək ki, fərmanın 1-ci hissəsində qeyd olunurdu:

"Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan ümumi gömrük dəyəri 10000 ABŞ dolları ekvivalenti məbləğindən (müşayiət edilən hər bir yetkinlik yaşına çatmamış fiziki şəxsə görə əlavə 2000 ABŞ dolları ekvivalenti məbləğindən) artıq olmayan mallar (aksizli mallar, avtonəqliyyat vasitələri və səfər zamanı fiziki şəxsin zəruri ehtiyaclarının ödənilməsi üçün nəzərdə tutulan əşyalar istisna olmaqla) gömrük ödənişi ödənilmədən gömrük sərhədindən keçirilir".

## 6 müxalif partiya mitinq keçirəcək

**Yanvarın 13-də KXCP-nin qərargahında "Azadlıq" Siyasi Partiyaların Əməkdaşlıq Mərkəzinin Sədrlər Şurasının iclası keçirilib. Mərkəzin üzvü olan Azadlıq Partiyasının sədri Əhməd Orucun "Yeni Müsavat"a verdiyi xəbərə görə, iclasda ölkədəki siyasi vəziyyət, sosial-iqtisadi böhran müzakirə olunub və müvafiq qərarlar qəbul olunub. Mərkəz etiraz aksiyalarının keçirilməsi qərarına gəlib. Sosial-iqtisadi böhranın milli maraqlara zidd nəticələrə gətirib çıxarmaması üçün bütün müxalifət qüvvələrinin fəaliyyətinin koordinasiyasına ehtiyac yarandığı bildirilib.**

Hökumətdən tələb edilib ki, böhranın qarşısının alınması üçün aztəminatlı təbəqənin maraqlarını müdafiə edən, korrupsiya və rüşvəti ortadan qaldıran kardinal və təcili antiböhran paketi hazırlanıb həyata keçirilsin. Ölkədəki siyasi, iqtisadi vəziyyətlə bağlı dialoqun baş tutması və konkret nəticələrin olması üçün dialoqda hakimiyyəti prezidentin təmsil etməsi doğru sayılıb.

Məlumatda sonra deyilir ki, 15 yanvarda saat 12.00-da KXCP-nin qərargahında "Ölkədəki iqtisadi böhran və çıxış yolları" mövzusunda bütün siyasi partiyaların iştirakı ilə tədbir keçirmək qərarı verilib.

Eyni zamanda mərkəz 20 Yanvar şəhidlərinin anma mərasimində birgə iştirak qərarı verib.

Qeyd edək ki, sözügedən Əməkdaşlıq Mərkəzinə 6 müxalif partiya daxildir.

❑ **E.SEYİDAĞA**



## "Günəşli" faciəsindən 40 gün keçdi: itkin düşən neftçilər anılıb

**2015-ci il dekabrın 4-də "Günəşli" yatağının 10-cu özülündə və Neft Daşlarında baş verən qəzalar zamanı itkin düşən neftçilər Dənizkənarı Milli Parkda anılıb.**

Musavat.com xəbər verir ki, bir qrup insan bulvarda Saat Qülləsinin yanında toplaşaraq, Xəzər dənizinə qərənfillər atıblar. Onlar 40 gündür ki, itkin düşən və qəza zamanı dünyasını dəyişən həmvətənlərimizi yad ediblər.

Qeyd edək ki, anım mərasiminin keçiriləcəyi ilə bağlı NİDA Vətəndaş Hərəkatı tərəfindən facebookda event yaradılmışdı. Daha sonra Xəzər sahilinə neftçilərin xatirəsini yad etmək üçün vətəndaşlar da gəliblər. Anım mərasimi gün ərzində davam edib.

Xatırladaq ki, dekabrın 4-də "Günəşli" yatağındakı qəza zamanı 33 nəfər xilas edilmişdi. 1 nəfər neftçinin cəsədi tapılmışdı. 29 nəfər isə itkin düşmüşdü.

İtkin düşən neftçilərdən 10 nəfərinin cəsədi tapılaraq, ailələrinə təhvil verilib. 19 nəfərin isə axtarışı hələ də davam edir.

Neft Daşlarında da itkin düşən 3 neftçinin də axtarışı davam etdirilir.

❑ **İlkin MURADOV**

## Zakir Qaralova "Şöhrət" ordeni verildi

**Azərbaycan prezidenti İlham Əliyev Zakir Qaralovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb. AzərTAc dövlət agentliyinin məlumatına görə, Z. Qaralov Azərbaycanın hüquq-mühafizə orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif edilib.**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# General Vidadi Məmmədovun Vergilər Nazirliyindəki gizli qrupu cinayətləri davam etdirir

## "MTN işi" ilə bağlı vəzifəsindən uzaqlaşdırılan departament rəisinin pulyığanı Nəriman Məcidovun nazirlikdə özfəaliyyətini davam etdirməsinə dair ilginc iddialar var; VN-in "Çovdarovu" iş başında...

**Ləğv edilən Milli Təhlükəsizlik Nazirliyinin sabiq rəhbəri Eldar Mahmudovun vəzifədən azad edilməsindən və bu qurumun yüksək vəzifəli şəxslərinin həbsindən dərhal sonra proses digər nazirliklərə də keçdi. Bəlli oldu ki, MTN-dəki cinayətkar şəbəkə digər nazirlikləri də qanunsuz işlərə cəlb edibmiş. Sahibkarların soyulması, qanunsuz dinləmələrlə bağlı cinayət işi üzrə Rabitə və Yüksək Texnologiyalar Nazirliyində, Vergilər Nazirliyində də əməliyyatlar həyata keçirildi. Nəticədə Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin rəisi Vidadi Məmmədov da vəzifəsindən azad olundu.**

Maraqlıdır ki, hələlik Eldar Mahmudov kimi, Vidadi Məmmədov da həbsdən yayına bilib. Redaksiyamıza məlumat verən bir mənbə iddia edir ki, V.Məmmədovun evində aparılan axtarış zamanı qiyməti yüz minlərlə dollarla ölçülən ləl-cəvahirat aşkarlanıb, onun ciddi qanunsuzluqları üzə çıxıb. Bizi bilgiləndirən mənbə iddia edir ki, V. Məmmədov Eldar Mahmudovun kadrı olub: "Belə ki, Vidadi Məmmədovla Eldar Mahmudov əvvəl "OBXSS"də bir yerdə işləyiblər. Eldar Mahmudov nazir olanda öz kadrlarını müxtəlif strukturlara yerləşdirməyə başlayıb. 2007-ci ildə Vidadi Məmmədov Vergilər Nazirliyinə gəlib və 2012-ci ildə Eldar Mahmudovun əli ilə general rütbəsi alıb. Belə ki, Vidadi Məmmədov Vergilər Nazirliyində uzun illərdən bəri MTN şefi olan Eldar Mahmudovun adamı kimi fəaliyyət göstərib. Vidadi Məmmədovun iş adamlarını öz otağına çağıraraq, istədiyi rüşvəti ala bilmədiyinə görə qandallatdıra da bilməsi Vergilər Nazirliyinin rəhbərliyi tərəfindən dəfələrlə narahatlıqda qarşılanıb və ona özünü yığışdırması haqda göstərişlər verilsə də, vergi generalının "qoruyucu mələyi" Eldar Mahmudov araya girərək onu hər dəfə xilas edə bilib. Elə Azərbaycan Prezidentinin "Sahibkarları boğurlar, soyurlar, incidirlər. Bu, dözülməz haldır. Bax, 30 minə yaxın iş yeri bağlanıb, 67 min daimi iş yeri yaradılıb, 30 mini bağlanıb. Mənə məlumat verilsin ki, o iş yerləri hansı səbəblər üzündən bağlanıb. O müəssisələrin rəhbərlərini dəvət etmək, soruşmaq lazımdır. Buna son qoyulmalıdır", sözləri də birbaşa V.Məmmədov və onun kimilərə ünvanlanmışdı. Ancaq konkret faktlar olmasına baxmayaraq, Fazil Məmmədov onun həbsinə nail ola bilmir".



Vidadi Məmmədov

**Qaynaq iddia edir ki, V.Məmmədov bu gün də Vergi cinayətlərinin ibtidai araşdırılması departamentini öz nəzarətində saxlayır:** "Onun sağ əli olmuş, bu gün də əlaqələri olan Nəriman Məcidov orada öz işində qalır və fəaliyyətini davam etdirir. O, departamentin şöbə müdiri vəzifəsində qalır. N.Məcidov bundan öncə də Elmir Şirinova əlbir çalışıb. Mühüm işlər üzrə böyük müstəntiq olan, "qarşılıqlı əlaqələr" maxinasiyasında ad çıxaran Nəriman Məcidov V.Məmmədova ən çox pul qazandıran şəxs olub. "Qarşılıqlı əlaqələr" Vidadi Məmmədovun "kəşfi"dir. Məsələn, A şirkətinin qanunsuz fəaliyyətlə məşğul olması bilinib və şirkət haqqında cinayət işi açılıb. Nəriman Məcidov və digər müstəntiqlər həmin şirkətlə iş görən firmaları da araşdırır və istintaqa cəlb edirmiş. Onlardan "adınız bu şirkətlə hallanır" hədə-qorxusu ilə pullar tələb olunurmuş. Beləcə, A şirkəti ilə bağlı cinayət işindən ayrı pul alınır, onunla əməkdaşlıq edən şirkətlər isə ayrıca soyulurmuş. Bu tip şirkətlərdən ən azı 20 min manat alınmadığı təqdirdə, onları cinayət işinə qoşub, sahibkarın başına müsibətlər gətiriblər. "Qarşılıqlı əlaqələr"dən alınan pullar isə "ümumi katyol"dan gizlədilib və Vidadi Məmmədov-Elmir Şirinov-Nəriman Məcidov üçlüyü arasında bölüşdürülüb".

**Mənbə qeyd edir ki, Nəriman Məcidov bu gün də Vidadi Məmmədova bağlıdır və nazirlikdə baş verən ən kiçik dəyişiklikdən onu məlumatlandırır:** "V.Məmmədov işdən azad olunduğu gün nazirlik işçilərinin yaddaş kartları və bilgisayarları yığışdırılsa da, Nəriman Məcidov lazımi məlumatları ələ keçirə bilib və nəzarət zəiflədikdən sonra götürülən bilgilər V.Məmmədova ötürülüb. Elə həmin dosyelərə görə də Eldar Mahmudovun Vergilər Nazirliyindəki "Akif Çovdarov"una kimsə toxuna bilmir. Vergilər naziri haqqında mətbuata zaman-zaman sızdırılan məlumatlarda da bu qrupun rolu böyükdür. Belə ki, özlərinin də iştirak etdikləri cinayətləri qəsdən nazirlə əlaqələndirərək mətbuata ötürərək, "yuxarılar"ı şantaj ediblər. Vergilər Nazirliyi N.Məcidovun işdən sonrakı fəaliyyətini araşdırarsa, bunun bir iddia olmadığını görəcəkdir. Nəriman Məcidovun həm Elmir Şirinov, həm də Vidadi Məmmədovla münasibətlərini öyrənmək üçün "İçərişəhər" metrosu yaxınlığında yerləşən "Monolit" binasının müşahidə kameralarını izləmələri kifayətdir. Bir fakt da odur ki, nazirlikdə "paket" sistemi minimuma endirilsə də, Nəriman Məcidov hələ də aylıq 3 min manat "paket" alan şəxslər arasındadır".

**Mənbə bildirir ki, Nəriman Məcidovun hansı sahibkarlardan nə qədər rüşvət alması, kimləri şərləməsinə dair siyahı əldə edilib:** "Həmin müraciəti də ölkə rəhbərliyinə göndərəcəyik. Sahibkarların ümumi razılığı olmadığı üçün həmin siyahı ictimailəşdirilmir, çoxları adının mediada getməsini istəmir".

❑ T.ƏHMƏDLİ

# Bölgələrdə bahalaşma əleyhinə aksiyalar keçirilir



## Siyəzən, Lənkəran, Füzuli, Ağsuda yüzlərlə sakin qiymət artımına etiraz etdi; saxlanılanlar arasında müxalifətçilər də var

**Dünən ölkənin bir neçə rayonunda bahalaşmalara etiraz olaraq, aksiyalar keçirilib. Siyəzəndə icra hakimiyyətinin binası qarşısında bahalaşmaya və işsizliyə görə aksiya keçirilib. Bu barədə musavat.com-a yerli qaynaqlar məlumat veriblər. Məlumatda iddia olunur ki, günün birinci yarısında baş verən aksiyaya görə rayona Daxili Qoşunların və Çevik Polis Alayının qüvvələri gətirilib. Aksiyaya səbəb kimi unun bahalaşması və işsizlik göstərilir.**



Məlumat verən qaynaq iddia edir ki, rayon mərkəzində yerləşən məscidin həyətində bir qadın özünü yandırıb. Qadının maddi problemlərinin olduğu bildirilir.

Aksiyaçılar arasında saxlananlar var. Deputat Tahir Süleymanov rayona gəlsə də, sakinlərlə görüşə bilməyib.

APA-ya açıqlamasında Siyəzən RİH başçısının müavini Zəfər Əliyev bildirib ki, rayonda sabitlik təmin olunub.

O qeyd edib ki, rayonda keçirilən aksiyada ölən və yaralananların olması barədə yayılan informasiyalar həqiqətə uyğun deyil: "Rayonda sakitlik bərpa olunub, hər şey nəzarət altındadır".

"Siyəzən rayon xəstəxanasına gözyaşardıcı qazdan zəhərlənən 13 yaşlı məktəbli gətirilib". Bu haqda AzadlıqRadiosuna Siyəzən rayon xəstəxanasının həkimi İdris Mehdili məlumat verib. Məktəbli xəstəxanaya öskürək və boğulma diaqnozu ilə yerləşdirilib.

**Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəis müavini Ehsan Zahidov "Yeni Müsavat"ın əməkdaşının sorğusuna cavab olaraq aksiya zamanı 1 qadının yaralandığını təsdiqləyib:** "Siyəzəndə razılaşdırılmamış aksiya keçirməyə cəhd göstərən bir qrup sakin öz aqressiv davranışları ilə ətrafdakı dinc insanların həyatı üçün təhlükə yaradıblar. İctimai asayişi təmin edən polis əməkdaşları onların bu qanunsuz hərəkətlərinin qarşısını alarkən həmin şəxslər polisə müqavimət göstərib. Onlara daş və digər əşyalar atıblar. Qanun pozucularının atdığı daşlardan biri azyaşlını məktəbə aparan gənc xanıma dəyib və o, ciddi xəsarət alaraq yerə yıxılıb. Dərhal 2 polis əməkdaşı öz həyatlarını riskə qoyaraq yaralı xanımı xilas edərək çağırdıqları təcili tibbi yardım maşını ilə xəstəxanaya çatdırıblar".

Füzulidə isə yanvarın 12-də baş tutan aksiya dünən də davam etdirilib. Rayon sakinləri Bala Bəhmənli kəndi ərazisindən keçən Bakı-Horadiz yolunu bağlayaraq unun bahalaşmasına, işsizliyə etirazlarını bildiriblər. Aksiyada 1000-ə yaxın adam iştirak edib. Rayonun icra başçısı Alı Alıyev aksiyaçılarla görüşüb.

Onun tapşırığından sonra əvvəllər kisəsi 35-36 manata satılan un 25 manata endirilib. İcra başçısı ilə əhalinin görüşündən sonra rayonda etirazçılar da sakitləşiblər. İcra başçısı aksiyaçılara vəd verib ki, yanvarın 15-də icra hakimiyyətində onlarla görüş keçiriləcək və tələbləri nəzərə alınacaq. Bununla belə, etirazçılar ərazini tam boşaltmayacaqlarını deyiblər. Aksiyaçılardan bəzilərinin saxlanılması xəbəri var.

**"Füzulidə baş verən etiraz aksiyasına səbəb qiymət artımıdır". Bunu APA-ya açıqlamasında Füzuli RİH başçısının birinci müavini Bağır Aslanov deyib. O qeyd edib ki, rayon icra hakimiyyəti rəhbərliyinin sakinlərlə apardığı danışıq nəticəsində etirazçılar dağılışıb:** "Saxlanılan və xəsarət alan olmayıb".

Yanvarın 13-də Ağcabədidən də aksiya xəbərləri gəlib. Rayon sakinləri bahalaşmaya və işsizliyə son qoyulması tələbi ilə küçələrə çıxıb. Aksiya zamanı hər hansı bir insidentin qeydə alınması haqda məlumat yoxdur. Orada da sakinlər sosial tələblərlə çıxış edib.

"Ağsu rayonunda yerli sakinlər tərəfindən etiraz aksiyası keçirilməyib". Bu barədə APA-ya rayon İH başçısının birinci müavini Rasim Novruzov bildirib.

Onun sözlərinə görə, rayonun bir qrup sakini qiymət artımı, əsasən də unun qiymətinin artırılması ilə bağlı icra hakimiyyətinə gəlib. Sakinlər Ağsu RİH-in başçısı Ənvər Seyidəliyev tərəfindən qəbul olunub. Başçı sakinləri dinləyib, onlara bildirib ki, süni qiymət artımının qarşısı alınacaq. Sahibkarlarla bununla bağlı görüş keçirilib. Məlumata görə, son günlər rayonda unun qiymətində artım olsa da, hazırda 50 kiloqramlıq un kisələri 27 manat 50 qəpiyə satılır.

Yanvarın 11-də Lənkəranda bahalaşma əleyhinə keçirilmiş aksiyaya qatılanlardan 7 nəferinin yanvarın 13-də məhkəməsi olub. Onlardan 4-ü cərimələnərək sərbəst buraxılıb, 3 nəfər barəsində inzibati həbs qərarı seçilib. AXCP-nin yerli təşkilatının sədri Nazim Həsənliyə və Müsavatın yerli təşkilatının sədri İman Əliyevə 1 aylıq həbs cəzası verilib.

İman Əliyev tutulmazdan əvvəl bildirmişdi ki, o, yoldan keçərkən bu aksiyanın şahidi olub. Nazim Həsənli də məhkəmədə deyib ki, o, aksiya zamanı dərsdə olub. Sadəcə, aksiya ilə bağlı şəkilləri özünün facebook səhifəsində paylaşıb.

**Yanvarın 13-də Müsavat başqanı Arif Hacılı Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində olub. Müsavat başqanı bildirib ki, o, BMCMİ-yə vəkil Nemət Kərimli ilə gedib. Orada qurumun rəisi Seyfulla Əzimovla görüşüb. BMCMİ-nin rəisi A.Hacılıya bildirib ki, onlarda son günlər rayonlarda baş verən kütləvi etiraz aksiyalarının təşkilində Müsavatın rolu barədə məlumatlar var. S. Əzimov bu görüşün məqsədinin həmin məlumatlarla bağlı Müsavata xəbərdarlıq edilməsi olduğunu bildirib. A. Hacılı isə ona cavab olaraq bildirib ki, Müsavat hələ ki, kütləvi aksiyalar barədə qərar verməyib:** "Bildirdim ki, Müsavat Partiyası tərəfindən kütləvi aksiyaların keçirilməsinə dair qərar qəbul edildikdə, bununla bağlı konstitusiyaya uyğun olaraq müvafiq dövlət orqanlarına rəsmi məlumat veriləcək".

DİN-dən "Yeni Müsavat"ın əməkdaşına bildirdilər ki, baş verənlərlə bağlı rəsmi məlumat yayacaqlar.

❑ E.MƏMMƏDƏLİYEV

**Manatın devalvasiyasından ən böyük zərbə banklara dəydi. Bir tərəfdən problemli kreditlərin həcmi artarkən, əmanətlərin qaytarılması da problemə çevrildi. Nəticədə bəzi bankların bazarı tərk etməsi qaçılmaz oldu. Bir çox bankların filialları bağlandı, işçilər ixtisar olundu. Bankların əksəriyyəti əmanətləri qaytarmaqda çətinlik çəkərkən, devalvasiyadan sonra xaricdən alınan kredit borcunun məbləği də manat ifadəsində artdı.**

# Vətəndaş da, banklar da borc içində batır

## Banklar nə dollarla olan kreditlərini ala bilir, nə dollarla olan əmanətlərini qaytarır

İqtisadçı ekspertlər isə ikinci devalvasiyanın bank sisteminə daha böyük zərbə vurduğunu bildirir, Mərkəzi Bankın timsalında hökumətin banklara ciddi dəstək verməsini vacib hesab edirlər.

"Yeni Müsavat"a açıqlamasında bankların vəziyyətini dəyərləndirən **iqtisadçı ekspert Samir Əliyev** bildirdi ki, banklar birinci devalvasiyadan sonra da zərərə düşmüşdülər və ikinci devalvasiyadan sonra bu zərər daha da böyüdü: "Birinci devalvasiyadan sonra zərər onunla bağlı idi ki, bankların valyuta mövqeyi korlanmışdı. Onlar Mərkəzi Bankın qoyduğu normativi pozaraq tələb olunandan daha çox dollar alqı-satqısı həyata keçirmişdilər. Devalvasiya olanda birdən-birə ümumi bank sistemi yüz milyonlarla dollar zərərə düşdü. Banklar kapitalın bir hissəsini itirdilər, problemli kreditlərin həcmi daha da artdı. Söhbət dollarla olan kreditlərdən gedir. İkinci devalvasiyadan sonra isə eyni hallar daha ağır formada yenidən təkrar olundu.

Çünki birinci devalvasiyadan sonra onun bank sisteminə vurduğu zərərin ağır nəticələri hələ aradan qalxmamışdı.

Düzdür, Mərkəzi Bank banklara müəyyən dəstək verdi. Bu dəstək ondan ibarət oldu ki, ehtiyat normasını azaltdı. Ehtiyat norma o idi ki, banklar kredit verəndə müəyyən qədər vəsaiti ehtiyatda saxlayırdı. Ehtiyat norması azaldıldığı üçün banklar həmin vəsaitləri kreditlərə yönəldə bildi. Aktivlərin təsisatı ilə bağlı qaydalara dəyişiklik edildi, Mərkəzi Bank kredit şərtlərinə yenidən baxılması, kredit şərtlərinin yumşaldılması üçün banklara dəstək verdi".

**İqtisadçı ekspert bildirdi ki, Mərkəzi Bank banklara mənfi təsir göstərən bir əks addım da ataraq, komission haqlarını azaltdı:** "Bu onunla bağlı idi ki, komission haqları üçün limit 1 faizə endirildi. Halbuki banklarda bu fərqli idi, 5-6, hətta 7 faiz olurdu. Mərkəzi Bank qayda qoydu ki, istehlak kreditləri 29 faizdən, mikrokreditlər isə 25 faizdən çox ola bilməz. Belə bir qayda tətbiq edildi. Bu əhali üçün yaxşı oldu və onların kredit almaq imkanını artırdı. Banklara isə mənfi təsir etdi. İki bank bazarı tərk etdi. Bəzi bankların vəziyyəti hələ də ağır olaraq qalır. İkinci devalvasiya problemi daha da dərinləşdirdi. Banklar valyuta mövqeyini düzgün idarə etmədiyi üçün valyuta mövqeyi pozuldu, bankların zərəri həddindən artıq çoxaldı. Nəzərə almaq lazımdır ki, bu çox ağır bir durumdur. Kreditlərin böyük hissəsini dollarla olan kreditlər təşkil edir. Deməli, həmin kreditlərin qaytarılması ilə bağlı çox böyük problemlər var. Çünki birinci devalvasiyadan sonra sürətli dollarlaşma prosesi getdi. Əhali öz əmanətlərini dollar hesabında yerləşdirməyə başladılar. Əmanətlərdə dolların payı 75 faiz təşkil etdi. Kreditlərdə də oxşar vəziyyət yarandı. Bank sektorunun vəziyyəti pisləşdi".




**Bankların xarici kredit borclarını ödəməkdə çətinlik çəkdiklərini bildirən S.Əliyev onların reytinqinin də geriləndiyini açıqladı:** "Bildiyimiz kimi, bankların kredit portfeli əhalidən cəlb edilən əmanətlərin, xaricdən cəlb edilən kredit resurslarının və bankın öz kapitalının hesabına formalaşır. İndi vəziyyət ondan ibarətdir ki, devalvasiyaya görə dollarla olan kreditlərini ala bilmirlər. Ancaq əvəzində dollarla olan əmanətləri yeni məzənnə ilə qaytarmalıdır. Bəzi banklarda əmanətlərin yeni məzənnə ilə qaytarılması ilə bağlı problemlər yaşanır. Digər tərəfdən, banklar xarici borcları qaytarmalıdırlar. Hazırda bankların xarici borcu 6 milyard manatdan çoxdur və indi onu qaytarmaqda çətinlik çəkirlər.

Birinci devalvasiyadan sonra banklar xərclərin optimallaşdırılması siyasətini həyata keçirməyə başladılar. Hazırda filialların bağlanması prosesi gedir, işçilərin ixtisarı və maaşların azaldılması prosesi gedir. İkinci devalvasiya prosesə daha da təkan verdi. Mən düşünürəm ki, bu il bankların qarşısında duran əsas məsələ filialların bağlanması, işçilərin ixtisarı və əməkhaqlarının azaldılması olacaq. İkinci problem isə odur ki, bankların beynəlxalq reytinqinin pisləşməsi prosesi gedəcək. Artıq biz bunun əlamətlərini görürük, bəzi bankların reytinqində pisləşmə var. Düşünürəm ki, bu proses davam edəcək. Üçüncü bir problem isə bankların bazarda qala bilməsidir. Mənim fikrimcə, bəzi banklar bazarı tərk edəcəklər. Ya başqa banka birləşəcəklər, ya bağlanacaqlar, ya da kredit təşkilatlarına çevrilə bilərlər. Dördüncü əsas problem əmanətlərlə bağlıdır. Mən istisna etmirəm ki, dollarla olan kreditlərin qaytarılması ilə bağlı kütləvi olmasa da, bəzi banklarda bu problem olacaq".

**Ekspert vurğuladı ki, bütün bu problemlər nəzərə alınaraq, hökumət Mərkəzi Bankın timsalında bank sektoru üçün ciddi tədbirlər görməlidir:** "Əhalinin bank sektoruna inamı artırılmalıdır. Banklara maksimum dəstək verilməlidir ki, onlara dəyən ziyan aradan qalxsın və banklar normal fəaliyyət göstərə bilsin. İkincisi, milli valyutaya olan inam bərpa olunmalıdır. Bu, bank sektorundan birbaşa asılıdır. Hökumət elə etməlidir ki, əhali manata etibar edib, milli valyuta ilə əmanət yatırsın.

Daha sonra əmanətlərin sığortalanması çox vacibdir. Çünki biz əmanətlərin azalması prosesini müşahidə edirik, insanlar əmanətlərini geri ala bilmirlər. Ona görə də əmanətlərin sığortalanması sistemi təkmilləşdirilməlidir. Mərkəzi Bank bankları ucuz kreditlə təmin etməlidir ki, banklar da əhaliyə, sahibkarlara kredit verə bilsinlər".

❑ **Nərgiz LİFTİYEVA**

# "Qiymətləri artıran bəzi mafiyalaşmış qruplar var"

## **Qabil Hüseynli:** "Dövlət büdcəsini dağıtmayan, vətənpərvər insanlar iş başına gətirilməlidir"

**Dekabrın sonlarında ölkəmizdə baş verən ikinci devalvasiya demək olar ki, bütün sahələri iflic etdi. İqtisadi böhranın fonunda kütləvi bahalaşmalar ölkəni ağuşuna alıb.**

İl ərzində baş verən ikinci devalvasiya bir məsələni yenidən aktuallaşdırdı. Hakimiyyət yenə də süni bahalaşma versiyasını ortaya atdı. 2015-ci ilin fevralında baş verən ilk iqtisadi böhranda da ölkə iqtidarı eyni siyasəti yürütmüşdü. Sanki hakimiyyət çıxış yolunu burada axtarır. Xüsusilə ölkə başçısının Nazirlər Kabinetinin son iclasında süni bahalaşma ilə bağlı sərt açıqlamaları, bu problemi yaradanların cəzalandırılması kimi fikirləri iqtidarın çıxış yolunu burada axtardığını göstərdi. Artıq bu yolda ilk addım da atılıb. Belə ki, ölkədə yumurtanın qiymətini artıranlara qarşı cinayət işi başlanılıb. Bir sıra qurum rəhbərlərinin məsuliyyətə cəlb olunmaları istiqamətində işlər də başlayıb.

Göründüyü kimi, hakimiyyətin böhrandan çıxış yolu kimi tapıntısı süni qiymət artımıdır.



**Politoloq Qabil Hüseynli hesab edir ki, qiymətlərin bir hissəsinin artımı təbiidir:** "Əgər xaricdən gətirilirsə, dollarla alınırsa, həmin məhsulların bahalaşmasını təbii qarşılamaq lazımdır. Ölkədə hazırda inflyasiya prosesi gedir. Amma etiraf edək ki, süni qiymət bahalaşması da var. Xüsusilə yerli istehsal məhsullarında bu cür artım baş verir. Yumurtanın qiymətinin artırılmasını çətin başa düşmək olur. Rayonlardan gətirilən qida məhsullarının artırılmasını başa düşə bilmirəm. İstehlakçı hazırda məhsullarını bazarda satmaqdan məhrumdur. Qiyməti bahalaşdıran arada oynayan şəxslərdir. Qiymətləri artıran bəzi mafiyalaşmış qruplar var. Əlləri ciblərində gəzirlər, xüsusi adamlar var ki, rayonlardan məhsulları alıb daha baha qiymətə satırlar. Apteklərdə dərmanlar azalıb. İstifadəçi kimi özümə lazım olan dərmanı tapa bilmirəm. Tapanda isə görürəm ki, qiyməti hədsiz bahalaşıb. Mənim üçün elə önəmi yoxdur, amma daimi istifadəçilər üçün çox önəm daşıyır. Hətta telekanallarda gördüm, elə yerlər var ki, dərmanları 3-4 qat bahasına satırlar. Buna görə də inzibati idarə sistemi gücləndirilməli, ictimai nəzarət daha da artırılmalıdır. Əhalinin soyulmasına imkan verməmək olmaz. Aqrar sektora xüsusi diqqət ayrılması elə də çox vəsait tələb etmir. Eyni zamanda sovet dövründən qalmış fabrik, zavodlar bərpa edilməlidir. Süni qiymət artımı obyektiv və subyektiv səbəblərə görə baş verir. Birtərəfli düşünmək olmaz. Manatın devalvasiyasını üzən məzənnə sistemində həyata keçirmişik. Amma dollar qıtlığı vaxtında dollar satıcıları peyda oldular. Buna qarşı xüsusi amansızlıqla mübarizə aparmaq lazımdır. Bəzi şəxslər var ki, vəziyyətdən istifadə edib süni problem yaradırlar. Nəticədə aşağı təbəqə yoxsullaşır, xüsusi qruplar varlanır".

**Politoloq iqtisadi böhranı süni qiymətlə bağlamağın doğru olmadığını da qeyd etdi:** "Ölkə ciddi reformalara getməlidir. Antiböhran tədbirləri hazırlanmalı, ciddi kadr dəyişikliyinə gedilməlidir. Dövlət büdcəsini dağıtmayan, vətənpərvər insanlar iş başına gətirilməlidir. Rüşvət və korrupsiya aradan qaldırılmayınca, aparılan tədbirlər məqsədinə çatmayacaq".

❑ **Cavanşir ABBASLI**

**Yanvarın 12-13-ndə ölkənin müxtəlif bölgələrində bahalaşmaya etiraz olaraq aksiyalar keçirildi. Biz həmin seçki dairələrindən parlamentə mandat qazanmış deputatların baş verənlərə münasibətini öyrənmək istədik. Odur ki, Füzuli rayonundan deputat seçilmiş Milli Məclis sədrinin müavini Bahar Muradova ilə seçki dairəsindəki etiraz aksiyasından başlayan söhbətimiz bütövlükdə ölkədəki prosesləri əhatə etdi.**

# Vitse-spikerdən sahibkarlara şok müraciət

## Bahar Muradova: "Əgər vəziyyət gərginləşəcəksə, o iş adamlarının nailiyyətləri də bir günün içində heç olacaq"



***- Bahar xanım, son iki gün ərzində ölkənin müxtəlif regionlarında, o cümlədən Füzuli rayonunda aksiya keçirildi. Rayonun bir hissəsinin erməni işğalında olduğunu nəzərə alsaq, insanlarımızla hüquq-mühafizə orqanlarının üz-üzə qalması heç yaxşı əlamət deyil. Razılaşırsınızmı?***

- Öncə bunu deyim ki, gərək dövlət rəsmisi, millət vəkili, sıravi vətəndaş, siyasətçi, prosesləri qələmə alan jurnalistlər, yəni hər kəs bu məsələyə məsuliyyət hissi ilə yanaşsın, dövlətin və xalqın maraqlarını öndə tutsun. Yox, əgər kimsə əlini əlinə sürtüb məsələyə "ay can-ay can, vəziyyət yetişdi, mən burdan öz maraqlarımı güdüm" şəklində yanaşacaqsa, bu, əlbəttə, mənfi nəticələrə yönəlmiş cəhdlər kimi dəyərləndirilməlidir. Dünyada gedən iqtisadi və siyasi prosesləri təsvir etməyə ehtiyac yoxdur. Azərbaycan da dünya birliyinin üzvüdür və biz yalnız dünyada gedən proseslərin ölkəmizə təsirini azalda və ya zərərsizləşdirə bilərik. Onun qarşısını tam almaq qeyri-mümkündür və bunun öhdəsindən kimsə gələ bilməz. Ona görə də hazırda Azərbaycan dövləti, xüsusən ölkə prezidenti mövcud durumun Azərbaycan vətəndaşına zərərlərini azaltmaq istiqamətində hökumət və cəmiyyət qarşısında ciddi tələblər qoyub. Bu tələblərin yerinə yetiriləcəyinə şübhəm yoxdur. Çünki burada artıq güzəştdən, kiminsə hərəkətlərinə göz yummaqdan söhbət gedə bilməz. Vəziyyət hər kəsi ciddi və məsuliyyətli olmağa vadar edir. Biz Azərbaycan cəmiyyəti olaraq ölkə prezidentinə hər zaman dayaq olduğumuz kimi, indiki vəziyyətdə də bu mövqedən çıxış etməli və onun tapşırıqlarını yerinə yetirmək üçün maksimum səylər göstərməliyik. Yox, əgər vəziyyəti gərginləşdirməyə daha çox çalışan olacaqsa, onun da cavabını yerində verməyə, yəni onun bu məsələni anlayışla qarşılamasına nail olmağa və onu düzgün istiqamətə yönəltməyə çalışmalıyıq.

***- Etirazlar bahalıqla bağlıdır, siyasi şüarlar yox dərəcəsindədir. Hətta aksiya iştirakçıları deyir ki, səslərinin ölkə başçısına çatmasını istəyirlər. Bu mənada aksiyaların qarşısına güc strukturlarının çıxarılmasındansa, məmurların, deputatların sadə insanların qarşısına çıxması, onları dinləməsi daha yaxşı olmazdımı?***

- Bayaq dedim ki, hər kəsin bu prosesdə vəzifəsi, məsuliyyəti var, hər kəs öz işini görməlidir. Bahalıq, işsizlik kimi sosial çətinliklər bütün cəmiyyətlərdə var, o cümlədən Azərbaycanda. Dövlətin də məqsədi bu çətinlikləri mümkün qədər azaltmaqdır. Bununla bağlı fikirlərin səslənməsi, müəyyən formaların seçilməsi də qanun çərçivəsində olmalıdır. Biz çalışmalıyıq ki, sabitliyi pozaraq yeni çətinliklər dalğası yaratmayaq. Hər bir vətəndaş burda məsuliyyət hiss etməlidir. Əlbəttə ki, vətəndaş dinlənilməlidir. Prezident özü vurğulayıb ki, ölkədə ictimai nəzarət ciddi şəkildə həyata keçirilməli və onun da müxanizmləri olmalıdır. Mexanizm olmadan pərakəndə və idarə olunmayan, "nəzarəti həyata keçirmək" adı ilə hərəkətlər olacaqsa, əlbəttə, onu da qanun müstəvisinə gətirməklə bağlı addımlar atılmalıdır. Burada söhbət kiminsə öz fikrini ifadə etdiyinə görə ona qarşı yönəlmiş hərəkətdən getmir, məsələlərin qanun müstəvisində tənzimlənməsindən gedir. Bir var kimisə həbs edəsən, bir də var ki, kimisə dəvət edib vəziyyəti ona izah edəsən. Bunlar fərqli məsələdir. Hesab edirəm ki, hüquq-mühafizə orqanları da məsələyə məhz bu asbektdən yanaşmalıdır və elə yanaşırlar da. O ki qaldı vətəndaşların öz fikirlərini ifadə etməsinə və onları aidiyyəti qurumlara çatdırmasına, millət vəkilləri də, müəyyən səlahiyyətləri olan şəxslər də daim prosesləri izləməli, ortaya çıxan fikirləri müvafiq qurumlara çatdırmalıdır.

**"Müxalifət deyəndə...onlar da bizim soydaşlarımızdır, Azərbaycan vətəndaşlarıdır"**

***- Şəxsən siz baş verənlərlə əlaqədar Füzuliyə getməyi planlaşdırmısınızmı?***

- Mən seçicilərimlə görüşlərimdə hər zaman bir fikri onların diqqətinə çatdırmağa çalışmışam, onlar da anlayışla qarşılayıblar. Demişəm ki, sizin dərdlərinizi, fikirlərinizi aidiyyəti qurumlara çatdırmaq üçün hər dəfə sizinlə görüşməyə ehtiyac yoxdur. Çünki mən rayon rəhbərliyi, həm də rayonun ən müxtəlif təbəqələrindən ibarət olan insanlarla, seçki prosesində məni müşayiət edən vəkillərimlə, ictimai vəkillərimlə daim əlaqə saxlayıram və problemləri bilirəm. Mənim seçki dairəmdən söhbət gedirsə, bu gün problemlərin nədən ibarət olduğu və insanların hansı məsələləri qaldırdığı barədə tam məlumatım var. Bu barədə müvafiq qurumların hansı addımlar atdığı və atmağa hazırlaşdığını da bilirəm. Bu gün mənə onların qarşısında çıxış etməkdən daha çox, onların problemlərini aidiyyəti qurumlara çatdırmaq və onun üzərində işləmək daha çox lazımdır. Mən də hazırda bu işlə məşğuləm. Mən çox istəyirəm ki, problemlər tezliklə həllini tapsın və insanlar daha az əziyyət çəksinlər. Mən bilirəm ki, ki, o insanlar öz torpağını, öz yurdunu sevən insanlardır, vicdanlı vətəndaşlardır. Onlar yaxşı ilə pisi, əyri ilə düzü çox yaxşı ayırırlar. Mən onların bahalıqla bağlı fikirlərini ifadə etməsində də bir nöqsan axtarmağın tərəfdarı deyiləm. İndiyə qədər də elə bir hərəkət etməyiblər ki, hansısa ciddi hüquqi nəticələr doğursun. İnanıram ki, bundan sonra onlar fikirlərini bu aspektdə ifadə edəcəklər. Yerli icra hakimiyyətinin rəhbərliyi də bütün hallarda onlarla görüşüb, fikirlərini dinləyib və müəyyən tədbirlər görülür. Ona görə də mən istər 84 saylı dairədə, istərsə də respublikanın digər ərazilərindəki insanların bu narahatlıqlarını anlamaqla yanaşı, narahatlıqları aradan qaldırmaq üçün hökumətin və müvafiq qurumların həyata keçirdiyi tədbirləri də anlayışla qarşılamağa və onların öz fikirlərini qanun çərçivəsində ifadə etməyə çağırıram. Çünki bu dövlət bizimdir və bu dövlətin bütün uğurları və nailiyyətləri insanlarımızın hamısının iştirakı ilə əldə olunub. Müvəqqəti çətinlik zamanı bu nailiyyətləri heçə endirəcək hərəkətlərə biz yol verə bilmərik. Mən inanıram ki, hətta narazılıqlarını ifadə edən şəxslər də bunu dərindən anlayır.

**"Problemlərin nədən ibarət olduğu və insanların hansı məsələləri qaldırdığı barədə tam məlumatım var"**

***- Bu arada bir sıra şəxslər, o cümlədən deputatlardan iqtidarla müxalifətin bir araya gəlməsi, vəziyyətdən çıxış yollarının birgə aranması üçün təkliflər səslənir. Bu təkliflərə münasibətiniz necədir?***

- Müxalifət deyəndə onlar kənardan gəlməyib, Azərbaycanın ictimai-siyasi maraqlarından kənarda tutulmalı olan zümrə deyillər. Onlar da bizim soydaşlarımızdır, Azərbaycan vətəndaşlarıdır. Əlbəttə ki, sözümün əvvəlində dediklərimi çıxmaq şərtilə, qalan konstruktiv mövqeli siyasətçilərlə, onların cəmləşdiyi siyasi partiyalarla dialoqu hər zaman mümkün saymışam. İndi də hesab edirəm ki, hazırkı şəraitdə vəziyyəti yaxşılaşdırmağa, çətinlikləri adlatmağa xidmət edən fikirlər, layihələr kimlərdəsə varsa, onu dinləmək, qəbul etmək, onunla fikir mübadiləsi aparmaq işin yalnız xeyrinə olardı. Burada kiminsə başqa maraq güdməsini düşünmək artıqdır.

**"Vəziyyəti yaxşılaşdırmağa, çətinlikləri adlatmağa xidmət edən fikirlər, layihələr kimlərdəsə varsa, onu dinləmək, qəbul etmək, onunla fikir mübadiləsi aparmaq işin yalnız xeyrinə olardı"**

***- Parlamentin fövqəladə toplantısı gözləniləndirmi? Yeri gəlmişkən, Qazaxıstan parlamentinin analoji durumda özünü buraxmaqla bağlı müraciət etməsinə münasibətiniz maraqlı olardı.***

- Mən hər zaman başqa ölkələrdəki duruma münasibətdə Azərbaycan üçün nəticələr çıxarılmasının əleyhinəyəm. Hər bir ölkənin özünün uyğun şərtləri var və yalnız bu şərtlər daxilində proseslərə qiymət vermək lazımdır. Onsuz da parlamentin komitələri fevralın 15-dən öz işinə başlayır. Təbii ki, parlamentin yaz sessiyasının qanunvericilik işlər planı üzərində ciddi iş gedəcək və elə bu səpkidə müzakirələrin olacağı birmənalıdır. Amma düşünmürəm ki, Azərbaycanda elə qeyri-adi durum yaranıb ki, bunun üçün parlamentin fövqəladə iclasını çağırmağa ehtiyac var. Çünki bir neçə gün bundan əvvəl cənab prezident hökumətin iclasını keçirməklə bu məsələlərlə əlaqədar görüləsi işlər və qarşıdakı planlar haqqında fikirlərini bölüşüb, hər kəs tapşırığını alıb. Qoyulan vaxt çərçivəsində onlar öz fikir və təkliflərini bildirməlidir. Azərbaycan parlamenti də bununla bağlı öz üzərinə düşən hissəni əmin olun ki, yerinə yetirəcək. Əgər hansısa məsələlərdə qanunlara əlavələr, dəyişikliklər, bu və ya digər ictimai müzakirələr lazım olacaqsa, biz onları edəcəyik.

***- Fəzail Ağamalı un inhisarçısı olan iki YAP-çı həmkarına xitabən deyib ki, bu vaxta qədər dövlətdən bəhrələniblər, heç olmasa indi xalqı çörəklə imtahana çəkməsinlər.***

- Görünür, Fəzail Ağamalı ərki çatan adamlara münasibətini ifadə edib. (gülür) Amma mən ölkədəki bütün bizneslə məşğul olan və hazırkı bazar qiymətlərinə təsir göstərmək imkanına malik olan bütün şəxslərə müraciət edərək onlardan xahiş edərdim ki, özlərinə tam ziyan vurmamaq şərtilə - bu cür tələb etmək də doğru olmazdı - ümumi maraqlar naminə edə biləcəkləri bütün addımları atsınlar, görə biləcəkləri bütün işləri görsünlər. Əgər vəziyyət gərginləşəcəksə, o iş adamlarının nailiyyətləri də bir günün içində heç olacaq. Ona görə hər kəs məsuliyyətli qərarlar qəbul etməyə borcludur. Azərbaycanda tək onlar deyil, yüzlərlə, minlərlə iş adamları var ki, onlar ictimai-siyasi vəziyyətə, insanların iqtisadi durumuna təsir göstərəcək addımlar ata bilərlər. Bu, həm də onların korporativ borcu, öhdəliyidir. Əgər sən dövlətin yaratdığı şəraitdən istifadə edərək özün üçün iş qurursansa və bu işin də nəticəsində ölkənin ictimai-siyasi həyatına təsir göstərə bilirsənsə, nəyə görə bu addımları atmamalısan? Hər kəz öz öhdəliyini özü müəyyənləşdirməlidir, gözləməməlidir ki, ona kimsə müraciət etsin.

❑ Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 9 (6330) 14 yanvar 2016



# Qanımın arasına girənlər...

Xalid KAZIMLI

**Hər kəsin bir X günü var, əziz oxucular. Məchul gün olduğu üçün saatı, dəqiqəsi bilinmir. Elə olur ki, qanıqara olan dostuna ürək-dirək, təsəlli verirsən, yola salırsan, yarım saat sonra adam səni təcili yardım maşınından endirib, ürək-dirək verə-verə, "qorxma, bir şey yoxdur" deyə-deyə əməliyyat otağına qaldırır. Bu, Ələsgər idi. Sağ ol, qardaş.**

O da Azər idi, məsuliyyətli və çevik tərpənməsəydi, bu xınanın əvvəl işlətdiyimiz xınadan olmadığını dərhal anlayıb, təcili yardım briqadasını vaxtında çağırmasaydı, Elşad Məmmədli ilə birlikdə üstümdə əsim-əsim əsməsəydi, qısa müddətdən sonra vəziyyət daha fərqli olacaqdı. Sağ ol, Ayxan müəllim. Sən də sağ ol, Elşad Məmmədli. Xilaskar qardaşlar.

Gerçəkdən də elə bir həyat yaşayırıq ki, bu gündən sabaha etibar yoxdur. Gərək bunu daima yadda saxlayasan və ehtiyatı əldən verməyəsən. Vallah, gənc və gümrah görünməyin məsələyə heç bir dəxli yoxdur.

Elə Bakı Sağlamlıq Mərkəzinin burun-qulaq-boğaz şöbəsinin əməliyyat otağında harasa qeyd etmək üçün yaşımı soruşan və "əlli" cavabı alan tibb bacısı gözəl bacı Gülnar xanım da ona qədər yüz dəfə başqalarından eşitdiyim "sizə bu yaşı vermək olmaz, elə bildim, ən çoxu 38 yaşınız var" deyə təəccübləndi. Mən də ona zarafatla səhhətimdə yaranan problemin diaqnozunu verdim: "Bax, belə deyə-deyə məni gözə gətirdilər".

Bədnəzər-filan da boş şeydir. Bizim rahatsızlıqlarımızın mənbəyi yaşadığımız həyatdır, həyat tərzimizdir, qida rejimimizdir, gündəlik məruz qaldığımız stresslərdir. Hamısı üst-üstə yığılır, başı ağrıdır, təzyiq yaradır və təzyiq bir incə damar tapıb çıxır, bizi yatağa salır. Adam heç düz-əməlli vəsiyyət də edə bilmir.

Hələ biz şanslıyıq ki, tibbin inkişaf etmiş çağında yaşayırıq və gözəl həkimlərimiz, şəfqət bacılarımız var.

Hər gün neçə nəfər mənim kimi çətin duruma düşmüş xəstənin həyatını xilas edən Şahin həkim soyuqqanlı bir şəkildə qanaxmanı dayandırandan sonra dərhal başqa bir xəstənin həyatını xilas etməyə girişdi. Xəstəxanadan ayrılanda mən ona "qanımın arasına girən həkim" dedim və burada şişirtmə yox idi. Belə həkimi İranda, Türkiyədə tapsaq, başına dönərik. Amma o da, onun şöbə müdiri Fuad doktor da budur, burdadırlar, düz qulağımızın... yox, yox, düz burnumuzun dibində.

Adama öz qardaşları, oğulları kimi baxan tibb bacılarını unutmaq olarmı? Əsla. Aytən, Arzu, Təranə, Fəridə xanımların qayğıkeşliyi, şəfqətli əlləri heç vaxt unudulmaz. Allah hamısına kömək olsun. Gün gəlsin ki, onlar İsveçdəki, Norveçdəki həmkarları qədər maaş alsınlar, özləri insanlara sağlamlıq bəxş etdikləri halda məişət sıxıntısı çəkməsinlər.

Xəstəxananın direktoru Hikmət Həsənova belə bir nümunəvi şəfa ocağı və ciddi nizam-intizam bərqərar etdiyinə görə ayrıca minnətdarlıq düşür. Onunla görüşmək imkanımız olmadı, amma müavini qısamüddətli ziyarətə gəlmişdi, xəstəxanadakı şəraitə görə minnətdarlığımı bildirdim.

Demək, istəyəndə, çalışanda ortaya nümunəvi iş qoymaq olur. Bakı Sağlamlıq Mərkəzi həm xarici görünüşü, həm də interyerinin dizaynı, təmizliyi ilə xaricdəki məşhur klinikalardan seçilmir. Allah eləsin, bu cür şəfa ocaqları ölkəmizdə çox olsun və insanlar hər sağlamlıq probemləri ilə bağlı dağa-daşa düşməsinlər.

Bu kimi hallarda mütləq ən yaxın adamlar adama "nə qədər xərcin çıxdı" deyə sual verirlər. İnanmayacaqsınız, amma xərcim çıxmadı. Bu üzdən özümü həyatımı xilas edən Şahin doktorun yanında xəcalətli hiss edirəm.

Yazının sonunda səhhətimlə bağlı narahat olan hər kəsə, mesaj yazan, zəng edən, ziyarət edən, ismarış göndərən bütün qardaşlara *(o cümlədən bioloji qardaşlarıma da)* minnətdarlığımı bildirirəm. Yastığımın altına ənənəvi "xəstə payı" qoyan Rauf Arifoğluna da təşəkkür edirəm. Şef neçə vaxtdır qayğımı çəkir, sağ olsun.

Zatən, adamın bu qədər dostu-qardaşı olandan sonra qalan hər şey boşdur. Yetər ki, adamın gözü arxada qalmasın. Çünki hər kəsin bir X günü əl-əlbət var.

# Bölgələrdəki etirazlar bütün ölkəni bürüyə bilərmi?

## Ərəstun Oruclu: "İstənilən bir prosesin total xarakter alması üçün çox ciddi təşkilatçı lazımdır"

**Ayrı-ayrı bölgələrdə bahalaşma əleyhinə aksiyalar keçirilir. Devalvasiyadan sonra mağazalarda qiymət artımı, xüsusən strateji məhsullar olan unun və çörəyin bahalaşması ilə bağlı narazılıq artıq etirazlara səbəb olub. Lənkəran, Ucar, Füzuli, Siyəzən və Sabirabad rayonlarının əhalisi mövcud duruma etirazlarını bildirmək üçün küçələrə axışıblar. Artıq bəzi bölgələrdə icra başçıları sakinləri qəbul etməyə başlayıb. Lakin etiraz dalğasının digər rayon və şəhərlərə keçəcəyi də istisna edilmir.**



Cəmiyyət bu etirazların total xarakter alacağından narahatdır. Politoloqlar isə bunun əksinə olaraq iddia edir ki, bölgələrdə lokal xarakterli etirazlar olsa da, bu, ölkə miqyasında geniş vüsət almayacaq.

**"Yeni Müsavat"a açıqlamasında mövcud durumu şərh edən politoloq Ərəstun Oruclu indiki mərhələdə etirazların total xarakter alacağını gözləmədiyini bildirdi:** "İstənilən bir prosesin total xarakter alması üçün çox ciddi şəkildə şəbəkələşmiş bir təşkilatçı lazımdır. Əks halda, bütün bu proseslər kortəbii şəkildə gedir. Ayrı-ayrı yerlərdə müxtəlif qruplar şəklində təşkil olunur, spontan yaranır. Spontan yarandığı üçün də bu prosesin kütləvi şəkil alması ehtimalı çox azdır. İctimai-siyasi proseslərin idarə olunması texnologiyası var. Bu texnologiyalar olduğu halda, onu tətbiq edəcək mütəşəkkil, şəbəkələşmiş, peşəkar fəaliyyət göstərən, ölkəni və ya onun əhəmiyyətli hissəsini əhatə edə biləcək təşkilat və ya bir qurum olanda təbii ki, bu mümkündür. Amma bugünkü şəraitdə bu yoxdur. İndi hakimiyyət rəsmiləri, ilk növbədə polis müxalifət təmsilçilərini şöbəyə çağıraraq onları təşkilatçılıqda ittiham edirlər. Halbuki məlumatlar onu göstərir ki, burada təşkilatçılıq yoxdur, bu spontan proseslərdir".

**Ərəstun Oruclunun sözlərinə görə, hökumət bu etirazlara siyasi çalar vermək niyyətindədir:** "Sadəcə olaraq, bir görüntü yaratmaq istəyirlər ki, guya bu artıq bir siyasi hərəkatdır, az qala inqilab törətmək cəhdidir. Hakimiyyət bu yolla əsas hədəfdən yayınmağa çalışır. Əsas hədəf isə ölkədə baş verən bahalaşmadır və hakimiyyətin sosial-iqtisadi siyasətinin bugünkü fəsadlarıdır. Burada hələ ki siyasi faktor yoxdur. İctimai-siyasi faktor olmayan yerdə, spontan olaraq ayrı-ayrı bölgələrdə meydana gələn etirazların ölkəni və ya onun əhəmiyyətli bir hissəsini əhatə edən hərəkata çevrilməsi ehtimalı qeyri-mümkündür. Mən düşünmürəm ki, hökumət bu etirazlardan çəkinsin. İlkin reaksiyalardan da bu görünmür. Məsələn, Lənkəran Rayon İcra Hakimiyyətinin açıqlamasında sakinlər aşağılanır, az qala alkoqolik kimi təqdim olunurlar. Bu düşüncə ilə hansısa rasional mövqe tutub insanlara doğru getmək, onların vəziyyətini yüngülləşdirmək üçün addımlar atmaq mümkün görünmür. Birinci düşüncəni, təfəkkürü dəyişmək lazımdır. Təəssüf ki, təfəkkür göstərir ki, ikinci devalvasiyadan sonra atılan addımlar nə iqtisadi, nə sosial, nə siyasi baxımdan rasional addımlar deyil. Yəni hökumət hansısa addımlar atsa belə, onun islahatçı təcrübəsi olmadığından o addımların ziyana işləməsi ehtimalı son dərəcə yüksəkdir".

**Ekspert onu da qeyd etdi ki, hazırda müxalifətin fəallaşması üçün zəmin var, lakin bu düşərgənin bundan necə istifadə edəcəyi sual altındadır:** "Mən hesab edirəm ki, indiki şəraitdə müxalifətin fəaliyyəti üçün müəyyən zəmin formalaşıb. Çünki illər boyu müxalifət siyasi proseslərdən müxtəlif üsullarla kənarlaşdırılıb. Amma bu gün əhalidə etirazlar başlayırsa, müxalifət üçün fəaliyyət şəraiti yaranır. Müxalifət bundan istifadə edə biləcək, ya yox, bu artıq başqa məsələdir".

❑ Nərgiz LİFTİYEVA

# Müxalifət birlik üçün daha bir şansı qaçırdı

## İqtisadi böhran da müxalif camiəni bir araya gətirə bilmədi; Natiq Miri: "Sosial xarakterli etirazların sonda bir liderə ehtiyacı yaranır..."

**Hazırda ölkəmizdə cərəyan edən iqtisadi böhran müxalifətin zəifliyini və parakəndə şəkildə fəaliyyət göstərdiyini sübut etdi. Ölkə müxalifəti birləşmək üçün bəlkə də son şansını qaçırmış oldu.**



Adətən belə böhranlar zamanı xalqın əsas gözləntiləri demokratik düşərgədən olur. Dünya ölkələrinin əksəriyyətində böhran zamanı bütün siyasi qurumlar millət naminə inciklikləri unudub birləşir. Amma Azərbaycan müxalifəti nəinki iqtisadi böhranın aradan qaldırılması üçün səmərəli işlər görmədi, susmalı olmadığı halda susmağa və hakimiyyət qarşısında antiböhran proqramı ilə çıxış etməyə üstünlük verdilər. Son günlərdə bölgələrin bəzilərində baş qaldıran etirazlar isə bir daha xalqın müxalifətlə bağının qırıldığını göstərir.

**Politoloq Natiq Miri hesab edir ki, müxalifətin birgə fəaliyyət göstərə bilməməsində bütün siyasi qurumları günahkar görmək düzgün deyil:** "Bu gün ölkədəki bəzi güclər müəyyən dövlətlər tərəfindən idarə olunurlar. Həmin ölkələrdən aldıqları müəyyən məbləğlərə görə onların havasını oynamağa məcbur olurlar. Dövlətə bağlı da müxalifətimiz var. Onlar müəyyən problemləri həll etmək istəyirlər, amma resursları imkan vermir. Çünki hakimiyyətin apardığı siyasət nəticəsində bu qurumlar tamam tükənmiş vəziyyətdədirlər. Sözsüz ki, bu qurumların özlərinin də zəifləmələrində günahları var. Onların bəzilərinin daxilində daxili demokratiya olmadığından, insanlar oradan uzaqlaşıb. Bu amil partiyaların zəifləməsinə və birləşməməsinə səbəb olub. Bu gün müxalifətin birləşməsi çox çətindir. Ola bilsin ki, ölkədəki problemlərin fonunda bəzi siyasi qurumlar meydana çıxa bilərlər. Onlar ən azından prosesin önündə olmağa çalışacaqlar".

**Politoloq xalqın artıq müxalifətin iştirakı olmadan təşkilatlana bildiyini də vurğuladı:** "İctimai rəydə müxalifətin nüfuzu çox aşağıdır. Bu da inamsızlıqdan irəli gəlir. Səbəb isə uzun müddət qazanılmayan nəticədir. Amma bu gün problemlər hər bir fərdi ayrı-ayrılıqda vurduqda onlar istəmədən təşkilatlanmağa məcbur olurlar. Son günlərdə rayonlarda baş verən etirazlar bunu sübut edir. Düşünürəm ki, belə vəziyyət davam edəcək. Amma unutmaq olmaz ki, müxalifətin ictimai rəyə təsiri gündəmə gəlməkdədir. Çünki cəmiyyət bu cür sosial xarakterli etirazların sonda bir liderə ehtiyacının ola biləcəyini yaxşı anlayır. Getdikcə bu gözlənti artacaq. Çünki buna ehtiyac var".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 9 (6330) 14 yanvar 2016

**"Ölkədə 21 dekabr devalvasiyasından sonra yaranmış vəziyyətlə bağlı yaxın günlərdə hakimiyyət rəsmiləri ilə siyasi partiya rəhbərləri arasında mövzu ətrafında dialoq başlamalıdır".**

# İqtidar-müxalifət dialoqu məsələsində fikir ayrılığı

## Deputatın təklifinə müxalifətdən "biz prezidentlə görüş istəyirik" cavabı verildi


Fəzail Ağamalı


Fazil Mustafa


Sərdar Cəlaloğlu

Musavat.com xəbər verir ki, bunu **deputat Fazil Mustafa** yazıb. Onun fikrincə, bu, həm əvvəllər mövcud olan dialoq formatının yenidən canlandırılması, həm də insanlarımızın düşdüyü ağır durumdan çıxış yollarının tapılması üçün faydalı olar: "Siyasi partiyaların istisnasız olaraq hamısı bu tədbirə dəvət olunmalıdırlar və hər bir siyasi qüvvə öz məsuliyyətini anlayaraq bu müzakirələrə öz töhfəsini verməlidir. Son günlər sosial şəbəkələrdə, mediada siyasətçilərin, müstəqil iqtisadçıların, bir sıra bloggerlərin maraqlı təklifləri ilə yanaşı, bəzi məsuliyyətsiz şəxslər tərəfindən avantürist çağırışların da şahidi oluruq. Bütün hallarda Azərbaycandakı vəziyyət ürəkaçan olmasa da, heç bir halda ölkəni qarşıdurma platsdarmına çevirmək olmaz. Tək seçənəyimiz dialoqdur və bütün faydalı görüş, təkliflər ölkə rəhbərliyinə çatdırılmalıdır ki, hərtərəfli müzakirə olunsun. Nəticədə vətəndaşlarımızın bu böhrandan çıxması üçün doğru qərarlar alınsın".

Xatırladaq ki, Azərbaycanda fəaliyyət göstərən bir sıra müxalifət partiyalarının rəhbərləri və hökumət arasında zaman-zaman iqtidar- müxalifət görüşləri olub. Ötən ilin birinci yarısında əksər siyasi partiyaların sədləri ilə prezidentin köməkçisi Əli Həsənov arasında görüşlər keçirilib. Ancaq artıq xeyli vaxtdır bu tipli görüşlər, dialoq keçirilmir. Ayrı-ayrı müxalif partiyalar son bir-iki ayda hakimiyyətə dialoq təklifi ünvanlasalar da məsələ hələ reallaşmayıb.

Deputat Fazil Mustafanın təşəbbüsünün müsbət nəticə verib-verməyəcəyinə gəlincə, Əli Həsənovla ötənilki görüşlərdə iştirak etmiş partiyalardan olan **ADP-nin sədri Sərdar Cəlaloğlu** bildirdi ki, ölkədə yaranan hazırkı durumda real nəticəsi olmayacaq görüşlərə, müzakirələrə ehtiyac yoxdur. Ölkədə yaranan durumdan çıxış yolları aramaq və real nəticələrə nail olmaq üçün ölkə prezidenti ilə 4-5 nüfuzlu müxalifət partiyasının liderinin dialoqu zəruridir. Başqa formatda keçirilən dialoqların təcrübə göstərir ki, nəticəsi olmur: "Bizim partiyanın İdarə Heyəti bir neçə gün öncə təklif irəli sürüb ki, dövlət başçısı ilə bir neçə müxalif partiyanın rəhbərinin görüşü keçirilsin. Bu, ölkənin maraqlarına uyğun olardı. İndi Fazil Mustafa bizim ideyamıza alternativ ideya kimi bir ideya irəli sürüb. Yenə də ölkədə vəziyyətin ciddiliyini dərk eləmədən çalışırlar ki, dialoq məsələsini mümkün qədər aşağı səviyyəyə salsınlar. Fazil bəyin hökumətlə müzakirə eləmək istədiyi məsələ varsa, deputatdır, parlamentdə 10-12 dənə partiya var, yığışıb özləri üçün müzakirə etsinlər. Niyə biz onlarla bir yerdə müzakirə aparmalıyıq ki, Araz Əlizadə ordan ağzına gələni danışsın, Siyavuş Novruzov hamını ermənipərəst adlandırsın, sonda da ad olsun ki, guya dialoq oldu. Belə dialoqun mənası yoxdur. Ölkədəki idarəçilikdə rolu olmayan şəxslərlə saatlarla müzakirə aparsaq belə heç nəyə nail olunası deyil. Bu baxımdan hesab edirik ki, birbaşa dövlət başçısı ilə görüş real nəticələr verə bilər".

**S.Cəlaloğlu indiki böhranlı vəziyyətdə iqtidardakı bəzi qüvvələrin müxalifətlə dialoqa getmək istəmədiyini bildirib:** "Azərbaycan dövlətini çökdürmək üçün bu gün iqtidarda bir qruplaşma var. Onlar heç kəsə, heç kimə qulaq asmırlar. Verdikləri bütün qərarlar günü-gündən böhranın dərinləşməsinə xidmət edir. Gəldiyim qənaət budur ki, uzun illərdir ki, iqtidarda müəyyən bir qüvvə Azərbaycan dövlətini və dövlətçiliyini çökdürmək istəyir. Həmin qüvvə İlham Əliyevə yanlış informasiyalar, yanlış təkliflər verməklə məşğuldur. Ölkədəki problemləri, reallıqları ört-basdır etməklə vəziyyəti günü-gündən daha da uçuruma aparırlar. Yaranmış vəziyyət son dərəcə təhlükəlidir. Azərbaycan hökuməti isə böhranı dərinləşdirən addımlar atır. Bütün bu məsələlər prezidentlə birbaşa müzakirə olunası məsələlərdir. Sabah ölkə böhrandan çıxa bilməyəndə bu gün danışan bəzi deputatlar, məmurlar məsuliyyətdən boyun qaçıracaqlar və hər şeyi prezidentin üzərinə yönəldəcəklər. Fəzail Ağamalı, yaxud Aydın Mirzəzadə deyir ki, prezidentin ehtiyacı yoxdur müxalifətlə görüşməyə. Siz kimsiniz axı... Sən prezidentin sözçüsüsən? Yoxsa Əli Həsənovsan? Ya da ki, prezidentsən ki, onun adından danışırsan? Məsələ budur ki, biz təkliflər verən kimi bəziləri dərhal aqressiv, təhqiramiz formada yanaşırlar. Bunlar həmin adamlardır ki, bu gün o insanlar ölkədəki indiki böhranlı vəziyyətin və gələcəkdə yaranacaq fəlakətin məsuliyyətini birbaşa prezidentin üzərinə qoyurlar".

**YAP Siyasi Şurasının üzvü, deputat Aydın Mirzəzadə isə modern.az-a açıqlamasında indiki vəziyyətdə belə bir müzakirə və ya dialoq qrupunun yaranmasına ehtiyac görmədiyini və bunun qanunla konstitusiyaya da zidd olduğunu deyib:** "Yəni ölkədə vəziyyət faciəvi deyil, dövlətçiliyimiz sual altında deyil ki, burada hansısa bir xüsusi qrup yaradılsın və bir fikir, beyin mərkəzi fəaliyyət göstərsin. Mən indiki vəziyyəti gərgin kimi qiymətləndirməzdim. Bu gün dünyanın hər bir nöqtəsində baş verən hadisə Azərbaycanda da baş verir. Amma mən deyərdim ki, biz başqa dövlətlər qədər gərgin vəziyyətdə deyilik. Hökumət tərəfindən müvafiq addımlar atılır. Ölkə prezidenti də öz mövqeyini bildirir. Həmçinin süni qiymət artımına qarşı mübarizə aparılır. Əmək haqlarının da artırılması ilə bağlı işlər gedir. Təbii ki, bu cür görüşlərin hər zaman keçirilməsi məqbuldur. İqtidar-müxalifət dialoqu artıq Azərbaycan siyasi mədəniyyətinin tərkib hissəsinə çevrilib. Bu baxımdan görüşlərin keçirilməsi, müəyyən məsələlərin, o cümlədən manatın devalvasiyası ilə bağlı məsələlərin müzakirəsi mümkündür".

A.Mirzəzadə bu görüşlərin nə zaman baş tutacağının dəqiq bilinmədiyini, amma mümkün ola biləcəyini əlavə edib.

❑ E.SEYİDAĞA

# Əli Abbasov və həbs olunan rabitəçi məmurlar YAP-dan çıxarılır



## Hüseyn Paşayev: "Həmin şəxslərin YAP-ın üzvü adını daşımağa mənəvi haqları yoxdur, təcili surətdə YAP-ın sıralarından azad olunacaqlar"

**Prezident İlham Əliyev rabitə nazirini işdən qovduqdan sonra ilk dəfə olaraq Rabitə və Yüksək Texnologiyalar Nazirliyində baş verənlərdən danışdı. Nazirlər Kabinetinin 2015-ci ilin yekunları ilə bağlı müşavirəsində prezident bəyan etdi ki, bu nazirlikdə həyata keçirilmiş qanunsuzluqlar sıradan bir cinayət hadisəsi yox, ağır cinayətdir, dövlətə xəyanətdir.**

Xatırladaq ki, ötən ilin oktyabr ayının 17-də milli təhlükəsizlik naziri Eldar Mahmudovun işdən çıxarılmasından sonra paralel olaraq Rabitə və Yüksək Texnologiyalar Nazirliyində (RYTN) də həbslər həyata keçirildi. Nazirliyin yüksək rütbəli əməkdaşları, o cümlədən aparat rəhbəri Vidadi Zeynalov, Beynəlxalq Əlaqələr və Hesablaşmalar Mərkəzinin direktoru Cəlil Cəfərov, "Bakı Telefon Rabitəsi" İstehsalat Birliyinin baş direktoru Beytulla Hüseynov həbs olundular.

Hələ o zaman nazir vəzifəsində işləyən Əli Abbasovun israrla həbs edilənləri müdafiə etməsinə baxmayaraq, tezliklə saxlanılanların çevrəsi daha da genişləndi. İlkin araşdırmalar göstərdi ki, RYTN-də rüşvətxorluq, korrupsiya, dövlət əmlakının mənimsənilməsi geniş vüsət alıbmış.



Noyabrın 12-də dövlət başçısının sərəncamına əsasən, YAP Siyasi Şurasının üzvü olan Əli Abbasov da nazir vəzifəsindən kənarlaşdırıldı. Bir neçə gün sonra YAP-ın daha bir "ağır top"u, partiyanın Mərkəzi Nəzarət Təftiş Komissiyasının sədri, "Aztelekom" MMC-nin baş direktoru Məmməd Məmmədov barəsində də həbs-qətimkan tədbiri seçildi.

"Yeni Müsavat"ın 13 yanvar sayında prezidentin qəti mövqeyindən dərhal sonra Əli Abbasovun və digər adıkeçən sabiq məmurların YAP Siyasi Şura üzvlüyündən uzaqlaşdırılmasının gündəmə gəldiyi xəbər verilib.

**Xəbəri dəqiqləşdirmək üçün YAP mətbuat xidmətinin rəhbəri Hüseyn Paşayevlə əlaqə saxladıq. H.Paşayev "Yeni Müsavat"a bildirdi ki, prezident İlham Əliyevin Nazirlər Kabinetinin son müşavirəsində çıxışı, orada səsləndirdiyi fikirlər hər bir Azərbaycan vətəndaşının mövqeyinin vahid mərkəzdən ifadə olunmasıdır və hər kəsin ürəyindən gələn fikirlər idi:** "Vəzifədən çıxarılan və həbs olunanlarla bağlı da cənab prezidentin fikirləri son dövrlər cəmiyyətdə, KİV-də müzakirə olunan məsələdir. Yeni Azərbaycan Partiyası həmin hadisələrdən dərhal sonra mövqeyini bəyan etmişdi ki, bu şəxslərin cinayəti təsdiq olunarsa, onlar partiyanın sıralarında qala bilməzlər. Biz hesab edirik ki, dövlət başçısı səviyyəsində bu məsələyə həm hüquqi, həm mənəvi qiymət verildi. Həmin şəxslər dövləti cinayətdə ittiham olunurlar və biz də hesab edirik ki, belə şəxslər Yeni Azərbaycan Partiyasının sıralarında qala bilməzlər. Ən azından onların Yeni Azərbaycan Partiyasının üzvü adını daşımağa mənəvi haqları yoxdur. Onlar təcili surətdə YAP-ın sıralarından azad olunacaqlar".

❑ Etibar SEYİDAĞA



# Köhnə film, təzə janrda

Zamin HACI
zaminhaci@gmail.com

**Aparılan siyasət göstərir ki, 23 illik hakimiyyət dönəmi yapistləri tam özlərindən arxayın edibdir. Yenə də rayonlarda bahalaşmaya etiraz edənləri müxalifətlə əlaqələndirdilər. Lənkəranda artıq Müsavat və AXCP rayon təşkilatı sədrlərinin hər birinə 1 aylıq inzibati həbs cəzası veriblər. Siyəzən etirazlarını da yapist deputatlardan biri Müsavat Partiyası ilə bağlamağa cəhd göstərib. Şübhə yoxdur ki, başqa rayonlarda da bu cür cəhdlər edəcəklər. Elə dünən baş prokurora növbəti medalın verilməsi nə qədər onun ad günü ilə bağlı olsa da simvolik sayılmalıdır. Axı uzun illərdir xalqa və etirazçılara qarşı tikilən torbaların dərzilərindən biri bu şəxsdir. Uzun illərdir onun hazırladığı və məhkəmələrin, sadəcə, möhürlədiyi işlər Avropa Məhkəməsində Azərbaycanı biabır eləməklə məşğuldur.**

Bəs sistemin başqa yolu varmı? Təbii ki, yoxdur. Biz burda özümüzü nə qədər gücə salıb hansısa iqtisadi mexanizmlər, hansısa islahatlar təklif eləsək də hakimiyyət bunları etməz. Çünki bunları etsələr gərək hakimiyyətdən getsinlər. Gərək başqa sivil dünya dövlətlərindəki kimi, bizdə də seçkilər olsun, hakimiyyətlər bir-birini əvəz eləsin. Bunlar isə özlərini əvəzedilməz sayırlar. Uzun illərin təcrübəsi ilə bu fikrə gəliblər. Prinsipcə, son çağlara qədər belə də görünürdülər. Etiraf edək ki, Azərbaycan xalqı bu uzun illərdə ortaya bir babat, güclü alternativ qoya bilmədi. Qoymuş olsaydı həmin alternativ indi hakimiyyətdə olardı. Yoxdursa, deməli, olmayıb. Sadə izah budur. Türmələrdən keçən yüzlərlə insan da çox az idi. Qəddar, sevmədiyim bir müdrik fikirdə deyilən kimi: "İstisnalar ümumini inkar eləmir".

Mən indiki etirazların da hansısa alternativ təklif olmasını düşünməkdən uzağam. Təəssüf ki, bu, bahalaşma əleyhinədir, bir növ qarın davasıdır. Və tarixən bu dava davaların ən pislərindən biridir. Hər bir tərəf üçün pisdir. İtirməyə zəncirdən başqa heç nəyi olmayan proletariat üçün onsuz da pisdir. Ona qarşı repressiya edən sistem üçün də sonra pis olur. Bunu ora-bura yozmağın mənası yoxdur - ortada tarixin dərsləri var.

Bir neçə il qabaq Müsavat başqanı İsa Qəmbəri Lənkərana getməyə qoymadılar, öyrədilmiş adamlar onun maşınını daşa basdı. İndi həmin adamlar niyə yoxdur? Neft pulunu, "zəhmətkeş" ştatında çalışmaq ödəncini ala bilmirlər. Yaxud kim olmasa da biz yaxşı bilirik ki, Füzuli rayonunda müxalifət çox zəif idi. O cümlədən Siyəzəndə. Siyəzən müxalif fikri yalnız son bir ildə Elza Seyidcahanın sayəsində eşitmişdi. Ağcabədidə bir aralar siyasi partiyaların yerli şöbələri ümumiyyətlə məhv edilmişdi. Ancaq camaat bu ərazilərdə qalxdı. Deməli, səbəb siyasi deyil. Səbəb hakimiyyət davası deyil, bu cür yozanlar ən böyük xəyanətkarlardır, xalqın düşmənləridir - rejimin diliylə desək. Səbəb yalnız sosial vəziyyətin ağırlığıdır.

Rayon icra hakimiyyəti başçılarının və deputatların reaksiyası da ortalıqda heç bir planın, proqramın olmadığını göstərir. Hər ağızdan bir avaz gəlir. Hətta bir iqtidar deputatı məmurları Alp dağlarında xizək sürməkdən çəkinməyə çağırmışdı! Təsəvvür edin. Alp dağları... Nəyə işarə vurur? Kimə söz atır?

Yaxud bəzi icra başçıları etirazçılara un paylayır, biri isə unun qiymətini salıb. Haçana qədər? Qabaqkı vaxtlar deyil, kisənin ardı gəlmir, əksinə, kisə deşilib, neftin qiyməti daha da düşür. Üstəlik, xalq öyrəncəli olacaq, un qurtaranda yenə istəyəcək. Başqa rayonlar da tərpənib ucuz un istəyəcək.

Açığı, mən özüm şəxsən bu dəqiqə siyasətə qarışmıram. Müxalifəti də səsləyirəm, qoy onlar orda-burda gizlənib heç ortalığa çıxmasınlar. İqtidar bilər, xalq bilər. Necə deyərlər, "İqtidar-xalq, xalq-iqtidar birliyi əbədidir, daimidir, dönməzdir!". Qətiyyən qarışmayın, bu "yeyib doyanlarla" ac qarınların davasıdır. Araya girənin yeyilmək ehtimalı böyükdür.



# ABŞ-ın yeni Qarabağ planı - ermənilərə sürpriz hazırlanır?

## Vaşinqton Rusiyanın münaqişə bölgəsində qalması və təsirinin artmasına qarşıdır; ancaq erməni lobbisinə hədsiz yaxınlıq Amerikanın planlarını korlaya bilər...

**Dağlıq Qarabağ münaqişəsi həll prosesində heç bir irəliləyişin olmaması üzündən özündə potensial müharibə risklərini saxlamaqda davam edir. Bir çox təhlilçilər bu riskləri indi ən əvvəl Yaxın Şərq bölgəsində cərəyan edən dramatik proseslərə nəzərən qiymətləndirməkdədirlər. Ehtimallara görə, konfliktin yoluna qoyulması önündə əsas maneə olan Rusiya faktorunun zəifləməsi məhz həmin proseslərin yekunu kimi ortaya çıxa və o zaman Qarabağ məsələsi ətrafında yeni situasiya yarana bilər.**

"Dağlıq Qarabağ ətrafındakı vəziyyətə nəzarət edən dünya gücləri münaqişəni Yaxın Şərq regionunda baş verən hadisələrlə əlaqələndirir. Buna görə də ötən ilin payızından etibarən vasitəçilər nizama salınma ilə daha fəal məşğul olmağa məcbur olublar". Bu barədə Rusiyanın **"Vestnik kavkaza" nəşri** yazıb. Nəşr son vaxtlar konfliktin nizamlanmasında Mindk Qrupunun amerikalı həmsədri Ceyms Uorlikin fəallığına diqqət çəkərək yazır ki, qrupun rusiyalı və fransalı həmsədri bunu normal qəbul etsə də, ortada başqa nüanslar da var.

"Bu ilin başlanğıcında belə şübhələr yarandı ki, ABŞ Qarabağ münaqişəsinin nizama salınmasında öz oyununu aparır. Söhbət ondan gedir ki, Uorlik ABŞ Konqresinin Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin rəhbəri Ed Roysla münaqişənin həlli üçün sıx işləmək haqda razılığa gəlib. Roys ABŞ-da ermənilərin sıx yaşadığı Kaliforniyadan olan konqresmendir. Bakıda onun ermənipərəst mövqeyi haqda bilirlər. Ona görə də Uorlikin Roysla əməkdaşlığı narahatlıq doğurmaya bilməz. Xüsusilə konqresmen Kristofer Smitin "Azərbaycanda demorkatiya aktı" layihəsindən sonra Konqresin etibarı rəsmi Bakının yanında kifayət qədər zədələnib. Bu akt Rosyun rəhbərlik etdiyi komitədə müzakirəyə çıxarılmalıdır. Analitiklər hesab edir ki, əgər Smitin layihəsi Roysun rəhbərlik etdiyi komitədə dəstəklənsə, onun reallaşması şansları yüksələcək. Hərçənd sağlam düşüncə Bakıya qarşı bu sanksiyaları absurd hesab edir", - deyə sayt qeyd edib.

**Məqalədə Azərbaycana qarşı sanksiya təşəbbüsləri erməni lobbisinin birinci addımı kimi xarakterizə edilir:** "İkinci məsələ qoşunların təmas xəttində snayperlərin geri çəkilməsi, təmas xətti boyu hücumların mənbəyini müəyyənləşdirmək üçün müasir atəş lokatorlarının və səs avadanlıqlarının yerləşdirilməsi ilə bağlı tərəflərin razılığının əldə olunması və nəhayət, atəşkəs rejiminin pozulması ilə bağlı nəzarəti yaxşılaşdırmaq üçün təmas xəttinə ATƏT-in əlavə müşahidəçilərinin cəlb edilməsi təklifləridir. Bu, hər şeydən öncə Ermənistana lazımdır. Çünki o, işğalçılıq siyasətindən əl çəkmək niyyətində deyil".

**"Vestnik kavkaz" daha sonra ABŞ-ın burada konkret məqsəd güddüyünü yazır:** "Vaşinqton bu addımı münaqişə zonasına Rusiyanın "mavi dəbilqəlilə-ri" - sülhməramlı qoşunlarının yerləşdirilməsi təhlükəsinə qarşı atmaq niyyətindədir. Bunu Bakı da qəbul etmir, lakin irəliyə doğru istənilən addım Qarabağda status-kvonun dəyişməsinə gətirib çıxaracaq ki, bu da öz növbəsində Ermənistanın uzunmüddətli işğalçılıq siyasətinə son qoymağa imkan yaradacaq. Digər ehtimala görə, ABŞ-ın Qarabağda "idarəçilik mexanizmi" Moskvanın regionda aktivləşməsinə qarşıdır".

***

Yada salaq ki, Qarabağda "idarəçilik mexanizmi" ideyasının müəllifləri Ed Roysla Eliot Engeldir. Ötən həftə Roys vasitəçi Uorliklə Konqresdə birgə keçirdiyi brifinqdə Barak Obama Administrasiyasını Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün Roys-Engel təkliflərinin həyata keçirilməsini sürətləndirməyə çağırıb.

Publika.az-ın hər iki konqresmen haqda apardığı kiçik araşdırmada onların erməni diasporu ilə sıx əlaqələrinə dair faktlar ortaya çıxıb. Ed Roys ABŞ-da Amerika Erməni Milli Komitəsi (ANCA) tərəfindən bir neçə il öncə yaradılan Ermənistana dəstək qrupunun həmsədri olub. Respublikaçı konqresmen Roys həmçinin, uzun illər "Türkiyədə müsadirə olunmuş xristian kilsələrinin və digər əmlakların geri qaytarılması"na çağırışlar edərək, "erməni soyqırımı"nı tanıtmaq cəhdləri edib. O, eyni zamanda 1992-ci ildə "Azadlığa dəstək akt"na edilən və Azərbaycanı federal yardım alan ölkələrin siyahısından təcrid edən 907-ci düzəlişin saxlanılmasının tərəfdarıdır.

Konqresmen Eliot Engel də siyasi mövqe baxımdan Roysla yaxındır. O, Konqresdə müzakirələr zamanı dəfələrlə qondarma "erməni soyqırımı" ilə bağlı məsələ qaldırıb. Bir neçə il öncə Ermənistan KİV-nin yaydığı məlumatlara görə, Engel 2011-ci ilin martında Amerikanın Erməni Assambleyasında Türkiyənin İsrailə qarşı düşmən münasibətindən danışaraq, Ankaranı üzr istəməyə çağırıb, həmçinin 1915-ci il hadisələrinə görə Türkiyəni ermənilərdən üzr istəməyə razı salmağın vacibliyinə diqqət yönəldib.

Bu faktlar amerikalı həmsədr Ceyms Uorlikin Dağlıq Qarabağ münaqişəsinin həllində aktivlik göstərməsinin motivinə aydınlıq gətirir. Uorlikin ötən ilin sonlarında qondarma "DQR"-in nümayəndəsi ilə görüşməsi də onun "vasitəçi diplomatiyası" haqda çox şey deyir.

***

Qeyd edək ki, bu barədə ilk olaraq "Yeni Müsavat" qəzeti iki gün öncə yazıb. Vurğulamışıq ki, təzə il başlar-başlamaz Uorlikin Qarabağ məsələsində sərgilədiyi diplomatik fəallıq, o sırada Konqresdə apardığı Qarabağ müzakirələri, nəhayət, prezident Əliyevi ABŞ-a dəvət eləməsi həm də Vaşinqtonun Qarabağ təşəbbüsünü Moskvadan almaq, onun münaqişə zonasında təhlükəli manevr imkanlarını və bölgəni qarışdırmaq planlarını önləmək planının tərkib hissəsi ola bilər.

Çox şey yəqin ki, prezident Barak Obamanın bu prosesə nə dərəcədə önəm verəcəyindən, Ağ Evin Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü təşkil edib-etməyəcəyindən və bir də yəqin ki, erməni lobbisinə yaxınlığı artıq gizli olmayan Vaşinqtonun etimad tədbirlərinə rəsmi Bakının reaksiyasından asılı olacaq. Hər halda, regionda oturuşmaq üçün ən əvvəl Azərbaycanın razılığını almağa ehtiyac var.

❑ **Analitik xidmət**

# Tiflisdə bağlı qapılar arxasında gərgin müzakirələr

**“Gürcüstanın ən ağır günlərində Azərbaycan həmişə onun yanında olub. Mənim yadıma gəlir, 1993-cü ildə baş nazirin 1-ci müavini işləyəndə rəhmətlik Heydər Əliyevin tapşırığı ilə gedib Şevardnadze ilə görüşdüm. Azərbaycan həmişə onlara kömək olub, pis günlərində yanında olub. Amma onlar indi fərqli mövqedən çıxış edirlər”.**



# Gürcüstandan Azərbaycana qarşı qaz xəyanəti

## SOCAR prezidenti qəfil Tiflisə getdi; ən ağır günlərində bu ölkəyə yardım əlini uzadan Azərbaycana münasibət niyə dəyişib?; **Vahid Əhmədov:** “Ola bilər ki, Tiflis Rusiyanın oyununda iştirak edir”

**Milli Məclisin deputatı Vahid Əhmədov** “Yeni Müsavat”a açıqlamasında bunları bildirdi. İqtisadçı-alim Gürcüstanın Rusiyanın “Qazprom” şirkəti ilə qazın idxalına dair apardığı gizli danışıqları şərh edərkən dedi ki, əslində gürcülər üçün real variant Azərbaycan qazından istifadə etməkdir: “Gürcüstan tərəf deyir ki, guya Azərbaycan qaz vermir. Elə bir şey yoxdur. Azərbaycanın kifayət qədər ehtiyatı var və Gürcüstana istənilən qədər qaz verə bilər. İndi bunlar bizim arxamızdan gedib Rusiya ilə danışıqlar aparmağa başlayıb, ruslar da deyir biz sizə ucuz qaz verəcəyik, məncə, bunlar hamısı ucuz siyasi manevrlərdir. Ola bilər, Azərbaycan qazının qiymətini müəyyən qədər aşağı salmaq istəyirlər ki, sərfəli şərtlərə nazil olsunlar. Yəni bu, bir siyasi oyundur”. **V.Əhmədov hesab edir ki, Bakı ilə Tiflis arasında ciddi problemin yaranacağını gözləmir. Deputat Azərbaycan qazının satış probleminin olmadığını da vurğuladı:** “Azərbaycan qazının Avropaya çıxarılması üçün böyük işlər gedir. Hazırda boru kəməri çəkilir, böyük işlər gedir və bütün dünyanın diqqəti bundadır. Ola bilər ki, Gürcüstan da Rusiyanın hansısa oyununda iştirak edir. Görək cənab Rövnəq Abdullayevin Tiflisdə apardığı danışıqların nəticəsi nə olacaq”.

Xatırladaq ki, Gürcüstanın energetika naziri Kaxa Kaladzenin Sürixdə Rusiyanın “Qazprom” şirkətinin nümayəndəsi Yelena Burmistrova ilə gizli danışıqlar apardığı bəlli olub. Məxfi danışıqların üzə çıxması isə Gürcüstanda müxalifətin və ekspert çevrələrinin ciddi etirazlarına səbəb olub. Sözügedən danışıqlar Gürcüstanın Rusiyadan qaz alması-na və bazarda Azərbaycanın dövlət neft şirkəti SOCAR-ın payının azaldılmasına yönəlmişdi. Virtualaz.org-un xəbərinə görə, Gürcüstanın energetika naziri bundan əvvəl də “Qazprom”la bir neçə dəfə danışıqlar keçirib. Hər dəfə bu, Gürcüstanda etirazlarla qarşılanıb. Müxalifət hökuməti ölkəni Rusiyadan asılı vəziyyətə salmaq cəhdində və Azərbaycanla münasibətləri korlamaqda ittiham edir. Xəbərlərə görə, müxalif Vahid Milli Hərəkat Partiyasının fəalları “Qazprom”la danışıqlara etiraz olaraq hökumətin “boz kardinalı” hesab edilən milyarder Bdzina İvanişvilinin iqamətgahı qarşısında aksiya keçiriblər. Kaxa Kaladze isə etirazları sakitləşdirmək üçün aparıcı ekspertlərdən ibarət qrupla görüş keçirib. Nazir ekspertlərlə görüşündə deyib ki, Gürcüstan “Qazprom”dan qaz almağa məcburdur. Çünki ölkənin əsas qaz təchizatçısı olan Azərbaycandan alınan qaz tələbatı ödəməyə bəs etmir. Ekspertlərə görə, Kaladze Rusiya tərəfi ilə danışıqların məxfi keçirilməsini “Qazprom”un istəyi ilə əsaslandırıb.

Gürcüstanın ən ağır günlərində bu ölkəyə yardım əlini uzadan Azərbaycana qonşu ölkədən açıq sayğısızlıq nümayiş olunmaqdadır. Düzdür, hər bir ölkənin iqtisadi və siyasi maraqları var. Lakin Azərbaycan gürcülərə qazı hətta Azərbaycandakı qiymətlərdən də ucuz satdığı halda, qonşu ölkənin gah Rusiya, gah da İrandan qaz almaq üçün danışıqlara getməsi haqlı etiraz doğurur. Hətta Gürcüstanın sabiq prezidenti M.Saakaşvili Gürcüstan hökumətinin Azərbaycana qarşı bu davranışına etirazını bildirdi. Üstəlik, ölkə hökumətinin Rusiyaya meyllənməsi Gürcüstanın müstəqilliyinə təhdid sayılır.

Bu arada SOCAR rəhbəri Rövnəq Abdullayev Gürcüstana səfərə gedib. Gürcüstanın paytaxtı Tbilisidə bu ölkənin hökumət rəsmiləri və SOCAR prezidenti Rövnəq Abdullayevin rəhbərlik etdiyi nümayəndə heyəti arasında aparılan danışıqlarda konkret nə əldə edildiyi bilinmir. “APA-Economics”in xəbərinə görə, Gürcüstanın baş nazirinin I müavini, energetika naziri Kaxa Kaladze bildirib ki, SOCAR bu il Gürcüstanın təbii qaza olan tələbatını ödəyə bilməyəcək. **“Azərbaycandan nəql olunan qazın həcminin artırılması üçün müvafiq investisiya qoyuluşu ilə texniki dəstəyin verilməsi vacibdir. Söhbət Gürcüstana nəql olunan qazın həcminin artırılmasından və bu layihədə SOCAR-ın iştirakından gedir. Tərəflər buna hazırdır”**, - deyə K. Kaladze bildirib. O qeyd edib ki, Azərbaycan Gürcüstanın strateji tərəfdaşıdır. Bağlı qapılar arxasında keçirilən görüşdə Gürcüstan tərəfini baş nazir Georgi Kvirikaşvili və Kaxa Kaladze təmsil edib. Xatırladaq ki, ötən gün K. Kaladze bildirib ki, Rusiya tərəfi Gürcüstana nəql olunan qaza görə Azərbaycandan daha ucuz qiymət təklif edir. Lakin baş nazirin müavini qiyməti açıqlamayıb. Bununla yanaşı, o qeyd edib ki, Rusiya tərəfinin təklif etdiyi qiymət SOCAR-a təqdim olunub.

Gürcüstan hazırda İran və Rusiyadan qaz idxal etmək istəyir. Hökumətin ötən il İran və Rusiya ilə ilk gizli qaz danışıqları üzə çıxmışdı. Amma həmin vaxt heç bir tərəflə razılaşma əldə olunmamışdı. Hazırda isə Gürcüstanın qaz bazarında ən böyük pay SOCAR-a məxsusdur. Əgər Rusiya və ya İran Gürcüstanın qaz bazarına daxil olarsa, SOCAR-ın payı azala bilər. Bu isə Azərbaycanın iqtisadi hədəflərinə uyğun gəlmir. Gürcü xalqı və müxalif siyasi partiyalar da Rusiyadan qaz ixracına etiraz edirlər. Onlar qaz ixracından Rusiyanın nə vaxtsa öz siyasi məqsədləri üçün istifadə edə biləcəyini düşünürlər.

Gürcüstanın təbii qaza olan tələbatı orta templə artır və qabaqcadan onu proqnozlaşdırmaq mümkün olur. Axar.az xəbər verir ki, bunu Gürcüstan mətbuatına açıqlamasında SOCAR-ın Gürcüstandakı nümayəndəliyinin rəhbəri Mahir Məmmədov söyləyib. Onun sözlərinə görə, Gürcüstan lazım olan qazı zamanında alır: **“Artım illik 8-9% nəzərdə tutulur. Əgər hansısa radikal dəyişikliklər olsa, biz bunun haqqında qabaqcadan xəbərdarlıq edirik. Gürcüstan qazı nəzərdə tutulan plan üzrə alır. Bizim Gürcüstana qaz ötürən iki qaz kəmərimiz var və onlar tam yüklənmiş halda işləyirlər. Qışda təbii qaza tələb daha çox olur, amma bizim resurslarımız kifayət qədərdir və ona görə də müntəzəm olaraq təchizatı artırırıq”.** Mahir Məmmədovun da Gürcüstanın energetika naziri Kaxa Kaladze ilə görüşü planlaşdırılıb.

❑ **Cavid TURAN**

# Azərbaycan - hər kəsdən yaxşı, dünənindən pis...



Elşad MƏMMƏDLİ
elshad1978@mail.ru

**Ölkədə vəziyyət gərgindir və bunu hamı bilir. Gün ərzində rayonlardan gələn xəbərlər də onu göstərir ki, ölkə əhalisi manatın ucuzlaşmasından və başqa böhranlardan yaranan bahalıqlardan narahatdır, narazıdır.**

Azərbaycan hələ çörək sınağı ilə qarşılaşmayıb - bahalıq təzəcə qol götürüb oynayır; bu proses dərhal siyasətə də təsirini göstərir. Artıq etirazlara qarşı görülən tədbirlər sırasında müxalifət partiyalarının yerlərdəki təmsilçilərinin həbsi xəbərləri də var. Buna etiraz olaraq üzvləri həbs olunan partiyalar bəyanat veriblər. Müsavat rəhbəri isə MCQMİ-yə çağırılıb, xəbərdarlıq alıb.

Lakin ölkədəki vəziyyət nə qədər gərgin olsa da, qəti və birmənalı olaraq proses çıxılmaza doğru getmir. Gerçəklik budur ki, Azərbaycan hələ də regiondakı bütün dövlətlərdən sabit, varlı və yaşanası ölkədir. Hansılardanmı? Bütün qonşularımızdan! Rusiyadan, Türkiyədən, Gürcüstan və Ermənistandan. Ölkəmizdəki vəziyyət bütün göstəriciləri ilə Ukraynadan, Moldovadan, ...Suriyadan, Liviyadan, iki-üç istisna ilə, bütün müsəlman aləmindən daha yaxşı, daha üstündür. Postsovet ölkələri arasında, eləcə də müsəlman dünyasındakı ən rahat və stabil ölkələrdən biridir, məmləkətimiz. Çörək də var, iş də, maaş da, sabitlik də. Meydanlarda bomba partlamır, etnik qırğınlar, çatışmalar yoxdur; gücdən düşmüş manatımız isə rubldan da, türk lirəsindən də, erməni dramından da, gürcü larisindən, Ukrayna qrivnindən də hələ güclüdür. Bu baxımdan, hələ olana şükür edək, olacaqlardan Allah qorusun deyək...

Vəziyyətin mürəkkəbliyindən istifadə edərək, stabilliyi pozmaq, Azərbaycanı ərəb ölkələrinin gününə salmaq istəyənlər də çox deyil. Bu sırada indiki duruma adekvat olmayan məmurlar daha öndə gəlir. Onların indiki rejimə sadiqlik göstəricilərinin bu məsələdə heç bir əhəmiyyəti yoxdur. Xalq yerlərdəki idarəetmədən və balaca padşahlardan razı deyil. Azacıq bir təlatüm bu cür məmurların timsalında xalqı iqtidarla üz-üzə qoyacaq. Buna görə də iqtidarın anti-böhran tədbirləri sırasında ilk yerdə bölgələrdəki məmurları yeniləmək, gəncləşdirmək və prezidentin də iki dəfə anons etdiyi kimi, idarəetməni ASAN modelinə keçirmək lazımdır.

Hakimiyyət ideoloqları və onun informasiya texnoloqları daha çox işləməlidirlər. Facebook fəalları qos-qoca hakimiyyətin informasiya şəbəkəsini üstələyir. İqtidarınsa əlində daha böyük imkanlar var - televiziya efiri tamamilə ona məxsusdur. İndi bir qədər fəal və yenilikçi olmaq yetərlidir ki, sosial şəbəkələrdən ölkə qazanına uzanan çömçələr havada qalsın. Burada müstəqil qəzetlərin də önəmi artır. İllərdir özünə geniş oxucu təbəqəsi toplayan və əsasən də narazı kəsimə xitab edən qəzet və saytlar ölkənin qarışdırılmaması, ərəb dünyasındakı xaosun Azərbaycanda təkrar olunmaması üçün səfərbər oluna bilər. Lakin iqtidarın iqtisadı sıxıntıları ucbatından müstəqil media quruluşları olduqca zəifləyiblər; son proseslərsə onu daha da pis duruma gətirib. Onlar, xüsusi ilə çap mediası tam çökərsə, informasiya məkanına kənar güclərin müdaxilə imkanları daha da artacaq. Bu baxımdan, iqtidar Mətbuat Şurasında konsolidə olunan media nümunələrini daha da gücləndirməyə və onların müstəqillik çərçivələrini artırmağa məcburdur.

Eyni münasibət ölkə müxalifətinə də olmalıdır. Azərbaycanın siyasi müxalifəti, kiçik istisnalarla, vətənpərvərdir, satqın deyil, özünü tükətməyib. Onlarla başladılan və seçkilər ərəfəsində dayandırılan dialoq davam etdirilməlidir. Azərbaycan müxalifəti meydanlarda təsirli deyil - lakin indi o, virtual aləmdə - sosial şəbəkələrdə iqtidardan da imkanlıdır, üstündür. Belə imkanların, ən azı öz zərərinə işləməməsi, təlatümlərə meydan olmaması üçün hakimiyyət maraq və təşəbbüs göstərməlidir. AXP lideri, sabiq baş nazir Pənah Hüseyn də yaxınlarda musavat.com-a verdiyi açıqlamada müxalifətin məsuliyyəti də, hakimiyyətin kiçik bir hissəsini də bölməyə hazır olduğunu demişdi. Ən çətin, ən məsuliyyətli, xalqla təmas nöqtələri sayılan vəzifələri, yerli hakimiyyət orqanlarındakı müəyyən postları vətənpərvər müxalifətin kadrları ilə paylaşmaq siyasi-iqtisadi islahatların ən böyüyü olardı....

Bir sözlə, indi Azərbaycanda vəziyyət, şərti ifadə ilə desək, dünənkindən pisdir. Lakin bütün qonşulardan və müsəlman dünyasındakı iki-üç ölkə istisna olmaqla, hamısından yaxşıdır.

Ona görə də seçim etməliyik - sabahkı daha pis, xarici güclər tərəfindən xaosa sürüklənən Azərbaycandansa, hər kəsdən yaxşı, yalnız özünün dünənindən pis Azərbaycan daha şükürlüdür.

YENİ MÜSAVAT
N 9 (6330) 14 yanvar 2016

**"Ayna-Zerkalo" qəzetinin həbsdəki əməkdaşı Rauf Mirqədirova hökm oxunmasından yarım ay ötür. Jurnalist barəsindəki məhkəmə qərarından yaxın günlərdə apelyasiya şikayəti veriləcək. Vicdan məhbusunun yaxınları növbəti instansiya məhkəməsində onun azadlığa buraxılacağına ümid edirlər.**



# Həbsdəki jurnalistin anası "Yeni Müsavat"a danışdı

## Rauf Mirqədirovun həyatı ilə bağlı ilginc faktlar ortaya çıxdı

*Mirqədirovlar ailəsində bu ümidin yaranmasına səbəb R.Mirqədirovla bərabər dövlətə xəyanətdə ittiham olunan Leyla Yunus və Arif Yunusun Apelyasiya Məhkəməsindən azadlığa buraxılmalarıdır.*

*R.Mirqədirovun anası Rəfiqə İsayeva ilə oğlunun həbsindən keçən 20 ay, ona verilən 6 il həbs cəzası, qarşıdan gələn Apelyasiya Məhkəməsi ilə bağlı ümumi dəyərləndirmə aldıq.*

***- Rəfiqə xanım, 20 ay əvvəldən başlayaq. Oğlunuzun ağır ittihamla həbsini necə qarşıladınız?***

- Raufun o ittihamla həbsi xəbəri bizi sarsıtdı desəm, az olar. Elə bil uca dağdan aşağı itələdilər, ayağımızın altından yer qaçdı. Həyatımızda çox çətinliklər görmüş, faciələr yaşamışdıq. Amma bu, hamısından ağır oldu. Həmişə qürur duyduğumuz oğlumu şərləmiş, özü də ən axırıncı cinayətkar kimi, 4 yaşlı övladının gözü qarşısında silahla maşından düşürüb həbs etmiş, ailəsini gecənin yarısı küçədə qoyub getmişdilər. Rauf o günü xatırlayanda, indi də həyəcandan əlləri əsir, gözləri yaşarır. Deyir ki, qızımın gözlərindəki ifadəni unuda bilmirəm.

***- Rauf bəyin həbsindən sonra hansı reaksiyalar oldu, nələr yaşadınız?***

- Oğlum həbs ediləndə bir çox beynəlxalq təşkilatlar, dövlətlər, hüquq müdafiəçiləri, siyasətçilər və jurnalistlər reaksiya verdilər. İttihama inanmadıqlarını bildirdilər. Oğlumu yüksək dəyərləndirir, şər-böhtana son qoyulmasını tələb edirdilər. Aydın görünürdü ki, tanınmış jurnalistin həbsi dövlətimizə qarşı düşmənçilik idi. "Düşmən dəyirmanına su tökənlər" dövlətimizin imicinə ciddi zərbə vururdular. Çoxsaylı bəyanat, qətnamələr ölkəmiz əleyhinə səsləndi. Raufun fikri azad, mövqeyi hər zaman güclü olub. Oğlum daim dövlətçiliyimizin möhkəmlənməsinə xidmət edib. Hətta onun həbsdə belə, verdiyi bəyanatlara fikir verin. Özünü deyil, vətənini düşünür. Birinci bəyanatında deyir ki, Türkiyə ərazisində vəkillik hüququmdan istifadə etməyimə yasaq qoyulması Avropa məkanında ilk idi, Avropa Şurasında Azərbaycanın həmsədrlik etdiyi ərəfədə verilmişdi. Oğlum qərarın dövlətçilik baxımından araşdırılmasının vacib olduğunu bildirirdi. Daha bir bəyanatında deyir ki, Qarabağ məsələsində iqtidar-müxalifət arasında birlik olmalıdır. Rauf bildirir ki, Ermənistana casusluq etməkdə ittiham olunması, hüquqi baxımdan ən böyük ədalətsizlik, milli maraqlar baxımından xəyanət, Allah qarşısında isə böyük günahdır. Oğlum həbsdə belə dövlətinin təəssübünü çəkir.

***- Oğlunuz nə zamandan milli azadlıq hərəkatına qoşulub?***

- Tələbəlik illərindən... Həmişə həyatını riskə atırdı. 20 Yanvar gecəsi həm vətəndaş, həm də jurnalist kimi qəhrəmanlıq etmişdi. Yaralıları xilas etməyə, qırğının qarşısını almağa çalışmış, eyni zamanda hadisələri tarixə köçürmüşdü. O, müharibə dövründə informasiya müharibəsində məğlub olduğumuzu görüb, bunu gözəl dəyərləndirirdi. Nahaqdan deməyiblər ki, kim informasiyaya malikdirsə, bütün dünyanı idarə edir. O zaman ermənilərin təbliğat maşını güclü işləyirdi. Biz isə "sizi sevəcəyik, siz sevməsəniz də" müstəvisində idik. Müğənnilərimiz "Azərbaycan-Hayastan qardaşdır" mahnılarını oxuyurdular. O zamandan Rauf Ermənistan-Azərbaycan münaqişəsini işıqlandırmağa başladı. Dünyaya Azərbaycan həqiqətlərini çatdırmağa çalışdı. Bunları Allahın ona bəxş etdiyi istedaddan faydalanaraq etdi. Bilirsiniz ki, yaradıcı insanın fikirləri təsir gücünü daha da artırır. Oğlumun bu keyfiyyətləri dövlətimizin düşmənlərinin maraqlarına uyğun deyildi. Onu neytrallaşdırmaq lazım idi. Ona görə də illərlə çalışdılar ki, Raufu həbsə salsınlar. Sonda buna nail oldular. Oğlum 20 aydır həbsdədir. Amma nə qədər çalışsalar da, oğlumun əleyhinə bir sübut belə tapmadılar. Şahidlər onun əleyhinə ifadə vermədilər. Onlara təşəkkür edirəm. Hökm oxunanda Raufun ifadəsini oxudular. O deyirdi ki, beynəlxalq konfransların bəzilərində Qarabağla bağlı müzakirələrdə Azərbaycan tərəfdən kimsə iştirak etmirdi. Bununla belə, müzakirə baş tutmuş sayılacaqdı. Ona görə də belə konfranslarda ölkəmiz adına iştirak etməyi özümə borc bilirdim, mövqeyim rəsmi Bakının mövqeyi ilə üst-üstə düşürdü. Oğlum erməni tərəfinin regionda nə qədər təhlükəli olduğunu sübut etməyə çalışırdı. Təsadüfi deyil ki, Rauf ilk dəfə mitinqə Şuşada "Topxana" meşəsinin qırılması ilə bağlı Bakıda keçirilən etiraz aksiyasında çıxıb. Onda tələbə idi. İlk dəfə üçrəngli bayrağımız meydana gəldi. Raufun vəkili Fuad Ağayev hündür olduğundan bayrağı o tutmuşdu. O zaman Hökumət Evində nazirlikdə çalışırdım. Bir ana kimi uşaqlarımdan nigaran idim. Onları mitinqdən evə göndərmək istəsəm də getmirdilər. Torpaqlarında bir ağacın kəsilməsini qəbul etməyən bu gənclər vətənizimin namusu, qeyrəti idilər. Bu tarixdir, artıq yazılıb. Yazıya isə pozu yoxdur. Rəhmətlik həyat yoldaşımın oxuduğu son kitabdan sitat gətirəcəm. Mevlana yazır ki, insan əşrəti-məxluqdur. Yəni varlıqların ən şərəflisidir. O, yoxsullaşsa, iftiraya məruz qalsa, həbsə girsə, hətta əsir olsa belə, yenə də başıdik, gözütox, könlü əmin Xəlifə kimi davranmaqdan əl çəkməməlidir. Rauf həbsdə olduğu müddətdə bu keyfiyyətləri özündə göstərdi. Mevlana deyir ki, kainat tək vücud, varlıqdır. Hər şey, hamı gözəgörünməz tellərlə bir-birinə bağlıdır. Ehtiyatlı ol, heç kimin ahını üzərinə götürmə.

## "6 ili eşidəndə ayaqüstə dura bilmədim"

***- Rəfiqə xanım, oğlunuza artıq 6 il cəza verilib. Keçən yarım ay sizin üçün necə keçdi?***

- Nəinki mən, bütün qohum-əqrəba növbəti dəfə böyük faciə yaşadı. Bunu gözləmirdik. Çünki onunla bərabər təqsirləndirilən şəxslər artıq azadlıqdadır. Onlar ev şəraitində həbs cəzalarını çəkirlər. Amma oğlum barədə heç bir söhbət də yoxdur. Bu hala çox acıyırıq.

***- Məhkəmədə hökmü canlı dinlədiniz. 6 il cəzanı eşidəndə ana olaraq, qəlbinizdən ilk hansı hisslər keçdi?***

- Ayaqüstə hökmü axıra qədər dinləməyə çalışdım. Amma 6 ili eşidəndə artıq ayaqüstə dura bilmədim. Elə bil bütün dünya başıma hərlənirdi. Düşünə bilmirdim ki, oğluma 6 il cəza verilib. Raufun həbsindən keçən 20 ay təkcə onun yox, mənim, qohumlarımızın ömrünü apardı.

***- Ən ağır maddə və ən yüngül cəza....***

- Maddələr arasında böyük təzad var. Amma təəssüf ki, hüquqşünas olmadığımdan bu təzadları müzakirə edə bilmirəm. Onu deyə bilmərəm ki, ağır maddəyə görə yüngül cəza Raufun əleyhinə heç bir sübutun olmadığını göstərir. İstintaq bilirdi ki, övladımın günahı yoxdur. Ona görə də 62-cı maddəni irəli sürdülər. Başqa yol yox idi. 20 ay saxlamışdılar, çıxılmaz vəziyyət kimi belə addım atdılar.



## "Oğlumu 4 yaşlı övladının gözü qarşısında silahla maşından düşürmüşdülər..."

***- Yunuslar hökmdən verilən apelyasiya şikayəti ilə azad olundular. Rauf bəyin də hökmündən şikayət veriləcək. Nəyəsə ümid edirsiniz?***

- Buna çox inanıram. (Ağlayır). Dövlətimiz oğluma da bu qərarı tətbiq edəcək. Amma onu da deyim ki, oğlumun tam azadlığa çıxmasını istəyirəm.

***- Yunuslar kimi şərti cəza ilə çıxarılsa necə?***

- Ortada oğluma qarşı ağır ittiham var. Bu ittiham Raufun üzərindən götürülməlidir. Hər kəs üçün çox ağırdır. Oğlum ömrünü vətənə həsr edib. Belə şəxsə qarşı bu ittihamı vermək, özünün dediyi kimi, Allah qarşısında ən böyük günahdır. Təmiz ad dünyada ən qiymətlidir. Ailəmiz üçün də xüsusilə. O adı heç nə ilə əvəz edə bilmirəm. Maddənin tamamilə oğlumun üzərindən götürülməsini istəyirəm. Rauf necə bu dövlət üçün təmiz adla çalışıbsa, yenə də əvvəlki Rauf olmasını istəyirəm. Bu maddənin bir xəyal kimi, onun üzərindən yox olmasını istəyirəm.

***- Dekabrın sonlarında Avropadan Azərbaycan hakimiyyətinə qarşı təzyiqlər oldu. Çoxları hesab edir ki, əfv sərəncamında heç bir siyasi məhbusun azad olunmaması və oğlunuzun 6 illik həbsində bu təzyiqlərin rolu oldu...***

- Oğlumun nəinki əfvə düşməsini, bəraət qazanmasını istərdim. İlk gündən Raufun atası və mən dövlətimizə müraciət etmişik. Məhkəmə önündə buna ümid edib, hər dəfə qapı açılanda düşünürdüm ki, oğlum oradan çıxacaq. Amma reallıq var. Bu tipli proseslərdə azad olunma ilk instansiya məhkəməsində olmur. Ona görə də ümidlərimi Apelyasiya Məhkəməsinə bağlamışam.

***- Rauf bəyin şəxsi həyatı da oxucular üçün maraqlıdır. Birinci evliliyi uğursuz olub. Oğlunuzun ikinci evliliyinə razı idiniz?***

- Heç bir ana istəməz ki, övladının ailəsi dağılsın. Amma həyatda hər şey olur. Bəzən ayrılmaq qaçılmaz olur. Rauf da çox ağrı ilə boşanma prosesini yaşadı. Hətta Azərbaycandan getməsinin də səbəbi o idi ki, boşanma prosesi ağrısız keçsin. Çünki Raufun övladları var idi. Onları çox istəyirdi. Boşanma prosesi uzandıqca, uşaqlar sarsıntı keçirirdilər. Ailəsi, dostları onun problemlərini yaxşı bilirdilər. Mənim üçün də oğlumun ailəsinin dağılması faciə oldu. Çünki nəslimizdə belə hadisə ilk idi. Amma bu oldu.

***- Qeyd etdiniz ki, övladınızın Türkiyəyə getməsinə evliliyində olan problemlər səbəb olub. Amma onun getməsində siyasi çalarların olduğu deyilir...***

- Xeyr, bu doğru deyil. Raufun Türkiyəyə getməsində heç bir siyasi çalar yox idi. Jurnalistikanın nə qədər təhlükəli peşə olduğunu yaxşı bilirsiniz. Amma Rauf dövləti tərəfindən təhlükə heç vaxt hiss etməmişdi. Həmkarları onun getməsinin səbəbini yaxşı bilirlər. O, boşanma prosesinin keçməsi, keçirdiyi hisslərdən sonra özünə gəlməsi üçün Türkiyəyə getdi.

***- Qeyd etdiniz ki, məhkəmədə oğlunuzun əleyhinə ifadə verən olmadı. Amma keçmiş arvadının istintaqdakı ifadəsi ilə məhkəmədə elan olunan ifadəsi arasında ciddi təzad oldu...***

- Ümumiyyətlə, o, məhkəməyə gəlmədi. Deyə bilmərəm niyə ifadələr arasında təzad oldu. Birinci ifadəsi çox müsbət idi. Amma ikinci ifadə də elə mənfi deyil. Sadəcə, ilk ifadədə Raufu tərifləyib, ikincidə yox. Hətta ilk ifadəsində deyib ki, Rauf mənə xəyanət edə bilər, amma dövlətinə qarşı heç vaxt etməz. Onsuz da onun ifadələrinin nəyəsə kömək edəcəyini düşünmürdüm. Noyabrın 30-da Raufla bizə görüş vermişdilər. Həmin görüşə onun qızı və nəvəsi ilə getdim. Həmin vaxt Raufun keçmiş arvadını iki dəfə məhkəməyə çağırmışdılar, amma gəlməmişdi. Rauf görüşdə qızına dedi ki, mamana de ki, məhkəməyə gəlsin və istədiyi ifadəni versin, burada qəbahət yoxdur. Ondan sonra müraciətim oldu ki, ifadə verən şəxsləri artıq narahat etməyin, nə deyiblərsə, məhkəmədə istifadə edin. Raufun keçmiş yoldaşı haqqında bir mənfi söz də deyə bilmərəm. Çünki ortada övladı var. Elə şeylər var ki, onlar şəxsi problemlərdir, demək olmaz. Raufun həbsində keçmiş ailəsinin heç bir əlaqəsi yoxdur. Çünki bu hadisə 5 il öncə olub. Ondan sonra Rauf Türkiyəyə gedib. Boşanma prosesi vəkil vasitəsilə olub. Oğlum qalmaqaldan daim qaçan insan olub.

***- Məşhur Aşurbəyovlar nəslinin nümayəndəsisiniz. Bu nəsildən olan bir adamın ağır şəkildə ittiham olunması sizə əlavə acı yaşatmırmı?***

## "Rauf maddi maraq uğrunda dövlətini satmaz"

- Artıq hər kəs Raufun Aşurbəyovlar nəslinə aid olduğunu bilir. Məhkəmədə hökm oxunarkən hər cümlənin əvvəlində maddi maraq sözü dayanmışdı. Onlar bu sözləri oxuyanda sanki başıma qaynar su tökülürdü. Raufu demək olar ki, qayınanam saxlayıb. Onun üçün var-dövlət yox, insana hörmət etmək öndə idi. Dövlətimiz Raufun hansı ruhda böyüdüyünü bilməmiş deyil. Rauf maddi maraq uğrunda heç vaxt dövlətini satmaz. Azərbaycanda oğluma çoxlu sayda iş təklifi olurdu. Onun istedadından bəhrələnmək istəyirdilər. Amma Rauf sona qədər qəzetinə sadiq qaldı. Elçin Şıxlıya tez-tez təkliflər gəlirdi. O, etiraz etmir, Raufun şəxsi işi olduğunu deyirdi. Hətta bir dəfə mənə dedi ki, ürəyim əsirdi, Rauf birdən gedər deyə. Rauf üçün azad fikir hər bir maddiyyatdan yüksək idi.

***- Oğlunuzun ikinci ailəsi ilə əlaqəniz varmı? Hazırda harada yaşayırlar?***

- Raufun ikinci ailəsi İsveçrədə yaşayır. Bu ailədən iki övladı var. Verilən imtiyazlar onların İsveçrədə yaşamaları üçün yetərlidir. Onlarla tez-tez əlaqə saxlayırıq. Uzaqda olsalar da, oğlumun, hər halda, ailəsidir. Raufun ikinci yoldaşı onun tezliklə azadlığa çıxacağına çox inanır.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 9 (6330) 14 yanvar 2016

**Xalq artisi Afaq Bəşirqızı müsahibə xahişimizə heç bir çək-çevir etmədən öz razılığını vermişdi və biz görüş vaxtını da təyin etmişdik. Lakin sonradan özü zəng edib "xəstəxanaya yerləşdirilməliyəm, siz bu gün gəlin" dedi. Dərhal çalışdığı Musiqili Komediya Teatrına yollandıq.**



# "Onların heç bir günahı yoxdur"

## Afaq Bəşirqızı: "Çox təəssüflər olsun ki, indi bir çox sahələrdə soyunmaq daha əlverişlidir"

*Teatrda Afaq xanımla dəhlizdə qarşılaşdıq. Bugünlərdə 60 yaşını qeyd edən aktrisa yaşına uyğun olmayan iti və şux addımlarla bizə yaxınlaşıb, səmimi görüşdü. Beləcə onun qrim otağına keçib müsahibəmizə başladıq.*

*Əvvəlcə səhhətində yaranmış problemin səbəbini soruşsaq da, aktrisa bu mövzuda danışmaq istəmədiyini bildirdi: "Mən xəstə kimi təqdim edilməyi xoşlamıram".*

***- Kino sahəsində özünəməxsus yeri olan Afaq xanımı niyəsə son çəkilən filmlərdə görə bilmirik. Səbəb nədir?***

- Çəkilirəm. Bu, Ramiz Fətəliyevin "Həddindən ziyadə çox təsadüflər" adlı bədii filmidir. Filmin rejissoru Ülviyyə Könüldür. Mənim çəkilişlərim isə ayın 20-dən başlayır. Mart ayında filmin təqdimatı olmalıdır. Rolum çox qeyri-adi və maraqlıdır.

Ola bilsin digərləri fikirləşir ki, filmlərin ssenarisi məni qane etməz və ya orda mənə aid obraz yoxdur və s.

***- "Afaq gülür, güldürür" layihəsi də artıq efirlərdə görünümür.***

- Layihə məndən aslı olmayan səbəblərdən dayandırıldı. "Space" TV-nin rəhbərliyi dəyişdi və yeni rəhbərliyin bu proqrama fikri, yönü başqa cür oldu deyə mən dayandırdım. Amma çox müvəffəqiyyətli idi və 8 serial çəkilmişdi. Yəqin ki, belə də olmalı idi. Hər şeydən bir az, amma dadlı və duzlu.

***- Yol polisləri komediya ustalarının hədəfinə tez-tez tuş gəlir. Amma həmin layihədə yol polisləri sizin obrazınızda fərqli hədəfdə idi. Daha təvazökar, səmimi, hətta sərnişinlərə öz xidməti avtomobilinin benzinindən pay verən məmur... Bu, sizin yol polislərində görmək istədiyiniz obraz idi, ya doğrudan sizin qarşınıza ancaq bu cür məmurlar çıxıb?***

- Uzun müddət bu mövzu gedirdi: "Polislər pul alırlar", "Polislər haqlı olanı saxlamırlar" və s. Mən onları saf çıxartmaq üçün o qədər qəribə bir polis canlandırdım ki, axırda mənə zəng edib dedilər ki, "day bu qədər yox da" (gülür). Hər hadisəni daşla vurmazlar. Ən acı sözü zarafatla deyirlər. Mən həmin metoddan istifadə etmişdim. O layihədə çox sərbəst surətdə istədiyim obrazları, yol polisi, deputatı, baş həkimi və s. canlandırırdım. Aktyora qadağa qoymaq ki, bu olmaz, sən yalnız xadiməni və taksi sürücüsünü canlandırmalısan. Bu, artıq sənətə daş vurmaq, sənətin belini sındırmaq deməkdir. Mənə elə gəlir ki, ən günahsız elə xadimələr və taksi sürücüləridir, onlar da heç kəs üçün maraqlı deyil. Çünki bu cəmiyyətdə onların heç bir günahı yoxdur. Nə dərəcədə düzgündür ki, günahı, sərgüzəştləri olanları canlandırmağa icazə verilməsin?

***- Bugünlərdə efirlərdən "qara yumorlar"ı yığışdırdılar. Sizcə, doğrudanmı onlar tamaşaçı üçün əhəmiyyətli deyildi, yoxsa hansısa məmurların tənqid olunmasına görə bu addım atıldı?***

- Buna qarşı mən öz kəskin etirazımı bildirirəm. İştirak etdiyim "Qayınanamız" serialı üçün də dedilər ki, guya ki, milli mentalitetə uyğun deyilmiş. Mən milli mentaliteti iki şeydə bilirəm; bir Qarabağım, bir də səlist Azərbaycan dilində danışmağım. Mən milli mentaliteti belə görürəm. Özü də kimə, Afaq Bəşirqızına irad tutulur. Sonradan əmr verildi, lakin mən getmədim. Əslində serial çox maraqlı sonluqla bitəcəkdi...

Əvvəllər seriala çəkilməmişdim. Bu seriala da razılıq verməyimin səbəbi Dilarənin xətrini çox istəməyim idi. Demirəm ki, serialda hər şey mükəmməl idi, əyər-əskikliklər də var idi. Və mən bir daha aktyor, istedad yoxluğunu hiss etdim.

***- Fikrinizcə, səbəb nədir?***

- Çox səbəb var. Amma əsas səbəblərdən biri İncəsənət Universitetində test imtahanının olmasıdır. Bu, istedadların qarşısını böyük sədlə aldı. Artıq beş ildir ki, dərs demirəm. Bundan əvvəl yeni gələn tələbələrlə tanış olandan sonra məlum olurdu ki, onlar başqa universitet nəzərdə tutsalar da, bal azlığından bura düşüblər. İncəsənət Universiteti, səhnə haqqında heç bir fərziyyəsi olmayan bir adam necə mənim tələbəm ola bilər? Necə aktyor yetişdirə bilərəm ki, onun istedadı yoxdur?

***- Məşhur "Bəxt üzüyü" filmindən sonra bir müddət Ramiz Əzizbəyli ilə aranızda narazılıq yarandı. Bu inciklik hələ də davam edir?***

- Mən 43 ildir ki, sənətdəyəm və heç vaxt, heç kəslə qalmaqalım olmayıb, ola da bilməz. Bu, bir jurnalistin məkrliyi və Ramizin bir az diqqətsizliyi ucbatından yarandı. Həmişə demişəm və deyəcəm də, mən onun ətini yesəm də sümüyünü çölə atmaram.

***- "Evləri köndələn yar", "Yaşıl eynəkli adam" kimi televiziya tamaşalarını bu gün efirdə izləyəndə gözünüzün önündə hansı xatirələr canlanır?***

- Yalnız Vaqif Səmədoğlunun silueti gözümün qabağında canlanır, heç dəxli olmayan səhnələrdə gözlərim yaşarır. Onun ölümü mənim üçün çox böyük itki, çox böyük zərbə oldu. Bunu dillə, cümlə ilə izah edə bilmirəm. Bəzən də özümü tənqid edirəm, "bu səhnəni gərək belə edərdim", "burda həddimi aşıb çox qabarıq" vermişəm və s. kimi hisslər yaşayıram.

***- Ən məşhur obrazınız Söylüdür. Bir qadın kimi Söylüdə nəyi bəyənirsiz, nəyi bəyənmirsiz?***

- Bəyəndiyim Söylünün saflığıdır, namuslu olması, ərini Allah hesab etməsi, ailəsinə qarşı diqqətliyi, hiyləgərlik bilməməsidir. Yeri gələndə o, Saraya görə hayqırır, onun kasıblığı lağa qoyulanda Sevda ilə dava edir. Amma çox pintidir. Özüm isə çox vasvasıyam. Bu obrazı oynayanda hər tamaşadan sonra səpirdim.

***- Sizcə, indi də Söylülər varmı?***

- Əlbəttə var *( iki dəfə vurğulayır)*. Özü də çox. İndi Söylünün yaşından qat-qat cavanlar var...Cəmiyyət özü pintiləşib.

***- Bir neçə ay bundan əvvəl oğlunuz Səmral Təhməzovun tanınmış məmurun yerinə vəzifəyə təyin olunduğu barədə məlumatlar yayıldı. (Nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovun yerinə, "Avtomobil nəqliyyatı ilə beynəlxalq və şəhərlərarası sərnişin daşımalarını həyata keçirən "M Trans" MMC-yə rəhbər təyin olunduğu bildirilir- di-red.)***

- Oğlumun hərbi rütbəsi də var, özü öz gücünə ali savad alıb, magistraturanı bitirib, çox böyük iş təcrübəsi olan, öz sahəsində sayılıb-seçilən adamdır. Burda nə qeyri-adi bir şey var idi ki, jurnalistlər təşvişə düşmüşdü? Oğlum neçə illərdir ki, o vəzifədədir. Sadəcə, kiminsə yerinə təyin olunduğu səhv məlumatdır.

***- Tamaşaçılara gülüş bəxş edən Afaq xanımı kim güldürə bilir?***

- Oğlum Səmral (gülür).

***- 21 dekabr devalvasiyasından sonra ölkə ictimaiyyətinin əhval-ruhiyyəsində bir dəyişiklik oldu. Bu gün də hər kəsin üzündə bir gərginlik, qorxu yaşanır. Sizə necə, bu əhval-ruhiyyə sirayət edibmi?***

- Əlbəttə, mən də bu xalqın nümayəndəsiyəm. Ölkənin müəyyən atributları, strukturları var ki, onlar bu məsələnin həlli üçün müəyyən işlər görməlidir.

***- Xalq artisti Bəşir Səfəroğlunun qızı olmaq sizə nələri verdi, nədə köməklik etdi?***

- Xalq artisti Bəşir Səfəroğlu adi bir şəxsiyyət deyildi. Adına gəmilər, küçələr, teatr olan sənətkardır. Bu da hər sənətkara qismət olmur. Bəzən ağzı göyçəklər deyir ki, qızı var, ona görə. Xeyr, o özü şəxsiyyətdir, Azərbaycan teatr səhifəsinə qızıl hərflərə düşən aktyordur.

Onun qızı olmaq doğrudan da mənim üçün həm böyük məsuliyyət, həm də çətindir.

***- Hansı qəzet və kitabları mütalië edirsiz?***

- "Yeni Müsavat"ı oxuyuram, arxayın olun. Yazıçılardan isə Seymur Baycanın, Çingiz Abdullayevin, Mopassanın kitablarını çox sevirəm.

***- Ötən il tanınmış rejissor Ayaz Salayev aktrisalara "Soyunun, yoxsa xaricdən aktrisalar gətiriləcək, ya səhnəyə çıxıb açıq-saçıq səhnələri oynayın, ya da ki, bu sənətə gəlməyin" çağırışı etdi. Uzun illər pedaqoq işləyən Afaq xanım öz tələbələrinə belə bir çağırış edib?***



**"Zəmanəni biz fırladırıq, zəmanə bizi yox"**

- Çox təəssüflər olsun ki, indi bir çox sahələrdə soyunmaq daha əlverişlidir. Amma sənətdə aktrisa soyunmağı bacarmaldır. O soyunanda da paltarlı kimi görünməlidir. Mən "Təhminə və Zaur" filmində Fəxrəddinin intim səhnəsinə hardasa baxıram, qəbul edirəm. Çünki mən Təhminəni Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsində" əsərindən tanıyıram. Filmdə gözəl aktyor oyunu var idi, illah da Fəxrəddin tərəfindən... Biri var sən soyunasan, biri də var sənət səni soyundursun.

Ayaz Salayev ağıllı insan, çox gözəl rejissor, kino sahəsini çox yaxşı bilən mütəxəssis, kino akademikidir. O, elə-belə söz deməz.

***- Bu məqamda bir siyasətçinin dediyi sözü xatırlayıram, "İndi Təhminələr çoxalıb..."***

- Bəli, həyatda öz xoşbəxtliyini tapmayan, cüzi bir səhvi həyatının qlobalına çevrilən, cəmiyyətdə heç kəsin xoşuna gəlmək gücünə malik olmayan, "olmaz onunla evlənmək", "olmaz onunla danışmaq", "o mənim gəlinim ola bilməz" kimi qınaqlara tuş gələn qadınlarımız çoxalıb.

***- Onda belə bir sual da verim - sizcə, kimdir günahkar, Təhminələrin özümü, yoxsa cəmiyyətmi?***

- İmam Əli əleyhissalam deyib ki, "biz ata-anamızdan oluruq, amma bizi cəmiyyət böyüdür". Zəmanənin vəziyyətini bizlər yaradırıqsa, deməli, zəmanəni biz fırladırıq, zəmanə bizi yox. Qəbahətlərlə dolu zamanədə yaşayırıqsa və bunu biz törədiriksə, deməli, özümüz günahkarıq.

***-Adətən incəsənət adamları siyasətdən uzaq qaçır, lakin siyasətə qoşulanlar da var. Sizin nə vaxtsa bu cür fikriniz olub?***

- İlk dəfədir ki, bunu sizin qəzetə açıqlayacam. Etibar Məmmədov, Nazim İmanov mənim sinif yoldaşlarımdır, biz yaxın dost olmuşuq. Lakin səhnəyə çıxanda mənim üçün partiya olmur. Tamaşaçılarım arasında bütün partiya üzvlərindən var.

Bir dəfə belə bir hadisə oldu, günlərin bir günü, axşamüstü Nazim mənə zəng vurdu. Dedi ki, Afaq, səndən bir xahişim var. İstəyirəm ki, sən Milli İstiqlal Partiyasının üzvü olasan. Dedim ki, ay Nazim, mən hara, partiya hara. Bildirdi ki, partiyada parçalanma gedir, istəyirəm ki, Etibar tək qalmasın. O vaxt o partiyanı tərk edənlərin çoxu indi iqtidarın ətrafındadır. Mən də bu sözə görə partiyaya üzv olmaq üçün ərizə yazdım, orda bildirdim ki, partiyanın rəhbəri mənim dostum, can-ciyərim olduğu üçün azərbaycançılıq uğrunda onun gücünə güvəndiyim görə bu partiyanın üzvü oluram. Bu 90-cı illərdə olub. Məni düzgün başa düşün, əgər bu mənim dostuma, hörmət etdiyim adama lazımdırsa mən qurban gedirəm. Amma o dostum sonra deyə bilməz ki, gəl mitinqlərə, bayraq götürüb qışqır. Onlar Azərbaycanın ziyalı övladlarıdır.

***- İndi də həmin partiyanın üzvüsünüzmü?***

- Xeyr, sonralar çıxdım. Bir çox siyasətçilərə hörmətim var. Amma dövlətçiliyimizin təhlükəsizliyi üçün bütün qınaqları, şəxsi ambisiyaları kənara qoyub kompromisə getməliyik. Çünki hamımız azərbaycanlıyıq. Əgər yavan aşımızın arıq toyuğu ola bilmiriksə, gedib düşmənin yağlı qazmağı olmayaq.

***- Bugünlərdə xalq şairi Zəlimxan Yaqub dünyasını dəyişdi. Bəzi müxalif düşüncəli şəxslər isə şairi tənqid atəşinə tutdular, onu "saray şairi" adlandırdılar. Bu məsələyə münasibətiniz?***

- Desəm ki, Zəlimxan Yaqubun yaradıcılığı ilə yaxından tanışam, yanlışlıq olar. Lakin o, həmişə deyirdi ki, mənə həyatda qiymət verən, şair kimi dəyərləndirən, qayğımı çəkən Heydər Əliyev, İlham Əliyevdir. Ən azından Zəlimxan bizim xalq şairimizdir. Onun ölümünün ardınca "saray şairi", "saray təlxəyi" adlandıranların özü elə saray təlxəkləri, naqislərdir.

***- Ötən il Afaq xanım üçün necə yadda qaldı?***

- 2015-ci il mənim ilim oldu. Bəşir Səfəroğlunun 90, mənim isə 60 illik yubileyim keçirildi, prezident məni məktubu ilə təbrik edib ödül verdi, gəlinim "ilin müəlliməsi" oldu, oğlumun vəzifəsi dəyişdi...

**❑ Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 9 (6330) 14 yanvar 2016




# Zaman İsgəndərov haqqında yazılanlara cavab verdi

**İş adamı, "Univermaq Zaman" kimi tanınan Zaman İsgəndərov bir neçə gün öncə "Yeni Müsavat"da barəsində dərc edilən yazıya cavab verib. O, yazılı şəkildə "Yeni Müsavat" qəzetinə göndərdiyi müraciətində qeyd edir:**

"11 yanvar 2016-cil tarixində "Yeni Müsavat" qəzetində mənim və ailəmin haqqında dərc olunan yazı ilə əlaqədar təkzib fikrimi yazılı olaraq bildirmək istədim. Mənim 80 yaşım var və bu yaşda bir insanın xəstələnməsi normal haldır. Hər bir insan hər zaman xəstələnə də, sağala da bilər. Mən də yüngülvari xəstələnmişdim. Hazırda sağalmışam və işimin başındayam. Qəzetdə bizim ailə üzvləri arasında əmlak problemləri olduğu haqqında yazılmışdır. Yenə də demək istəyirəm ki, 80 yaşım var və bu yaşımda bir ağsaqqal kimi həmişə mən camaatın problemlərini həll edib barışdırmışam, nəinki mənim ailəmdə belə problemlər olsun. Onu da qeyd edim ki, mənim bir oğlum, iki qızım var. Qızlarımın hər birinin öz ailəsi, öz işləri var. Onların belə bir problem yaratmağa ehtiyacları yoxdur! Oğlum isə tək oğlumdur və aydındır ki, bütün əmlakımın da tək varisidir. Ona görə onunla aramızda əmlak problemi olması qeyri-mümkündür.

Həmçinin yazıda qeyd olunub ki, oğlum ayda mənə nə qədərsə pul verir və bu pulu kəsməklə məni hədələyir. Buna da münasibət olaraq demək istəyirəm ki, biznesimin başında özüm durmuşam və oğlum mənə deyil, mən oğluma pul verirəm. Xahiş edirəm, bütün bu yazılanları nəzərə alasınız və dərc etdiyiniz yazıya təkzib olaraq qəbul edəsiniz.

Hörmətlə, Zaman İsgəndərov".




# Sahibkarlar vergi borclarının silinmədiyini iddia edir

## Redaksiyamıza müraciət edən kiçik sahibkar vergi borcunun taleyi ilə bağlı məlumat əldə edə bilmir...

**Xəbər verdiyimiz kimi, ötən ilin sonlarında Azərbaycanda kiçik məbləğdə olan vergi borclarının ləğv olunması ilə bağlı xəbər yayılmışdı. Vergilər Nazirliyi bildirirdi ki, Azərbaycanda 24 minə yaxın vergi ödəyicisinin əsasən kiçik məbləğlərdə olan borcları tamamilə ləğv edilib.**

Bundan başqa, ölkədə daha əlverişli biznes mühitinin formalaşması və sahibkarların, xüsusilə də kiçik və orta sahibkarların vergi borclarının ləğv edilməsində onlara köməklik göstərilməsi məqsədilə başa çatmaqda olan cari ilin son ayı ərzində vergi orqanlarında aparılmış hərtərəfli araşdırmalar nəticəsində vergi ödəyicilərinin çoxu yaranmış vergi borclarını büdcəyə ödəyib, mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq bir sıra vergi ödəyicilərinin borcları azaldılıb. Bu fikirlər Vergilər Nazirliyinin mediaya ötürdüyü açıqlamadandır.

Ancaq məlum olur ki, məsələ heç də deyildiyi kimi olmayıb. Bugünlərdə redaksiyamıza müraciət edən kiçik sahibkar deyir ki, onun özünün kiçik məbləğdə vergi borcu olsa da, ləğv olunmayıb. Bundan başqa, tanıdığı onlarla sahibkarın da kiçik vergi borcları silinməyib. Maraqlıdır ki, Vergilər Nazirliyi özü də borcu silinən sahibkarların kim olduğu barədə açıqlama vermir. Sahibkarların nazirliyə müraciətləri də cavabsız qalıb.

❑ KƏNAN

# Qənaətə keçiriksə, "Formula 1" ləğv edilməlidirmi?

## Zahid Oruc: "Azərbaycanda vəsaitləri özünə çəkən istənilən tədbir insanlarda qıcıq doğura bilər"

**Azərbaycan hökuməti 4 illik qənaət rejiminə keçməyi düşünür. İqtisadçıların sözlərinə görə, bunun nəticəsində dövlət qurumlarında bir sıra ştatlar ləğv ediləcək. Həmçinin dövlət investisiyaları, təmir-tikinti işləri də azalacaq. Nəticədə isə ölkədə işsizlərin sayı artacaq.**



Belə olan təqdirdə ictimaiyyətdə ən çox müzakirə edilən mövzulardan biri də qarşıdan gələn "Formula 1" yarışlarının ləğv edilib-edilməməsidir.

Hökumət qənaət rejimi dövründə bu tipli beynəlxalq yarışları dayandırmalıdırmı?

Məsələ ilə bağlı musavat.com-a **deputat Zahid Oruc** danışıb. O bildirib ki, insanların hazırkı şəraitdə bu kimi beynəlxalq yarışlara devalvasiya kontekstində yanaşması təbii və anlaşılandır: "Burada əlahiddə bir məqam yoxdur. Təbii ki, münasibətlər dəyişkəndir və nisbi xarakter daşıyır. Bir il öncə bəlkə də bir çoxları bunu normal sayardılar. Bununla belə, indi cəmiyyətdə insanlar hər bir məsələyə qarşı həssas olublar. Azərbaycanda vəsaitləri özünə çəkən istənilən tədbir insanlarda qıcıq doğura bilər. Lakin məsələnin başqa bir tərəfi də budur ki, bəyəm Avropa Oyunları xüsusilə devalvasiyanın səbəbidir? Bu doğru yanaşma deyil. İqtisadiyyat hansısa bir rels üzərində qurulursa, o resursdan müəyyən dövr asılı olursa və bu hal sönəndə özünün təsirlərini hiss etdirəcəkdir. Hazırkı şəraitdə insanlar istənilən vəziyyəti sanki rentgen şüasından keçirərək görürlər və qiymətləndirirlər. Baxın, Avropa Oyunlarının yarış stadionları və onun çevrəsində qurulan digər infrastruktur da bura gələn idmançılarla birlikdə xarici ölkələrə getməyib ki? Sadəcə olaraq, indi fəal bir şəkildə o stadionları özəlləşməyə açmaq, idarəetmələrə vermək və ondan faydalanmaq gərəkdir".

**Z.Oruc bildirib ki, böhran vəziyyətində əvvəlki dövrdə sərf olunan vəsaitlərin ölü kapitaldan azad edilməsi durumdan çıxmaq üçün açar rolunu oynaya bilər:** ""Formula 1" bəlkə də Azərbaycan cəmiyyətində olmasa da Avropa məkanında uzun bir tarixi olan, hər zaman da cazibədar olub böyük tamaşaçı auditoriyası toplayan yarış olub. Bu yarış üçün müxtəlif yerlərə gedib, orada vəsaitlər xərcləyən adamlar var. Müxtəlif ölkələrdə bu rəqəmlər də fərqlidir. Məndə olan məlumata görə, "Formula 1" yarışına yönələn vəsaitlər çox da böyük deyil. Kimsə bunun 12, hətta 300 milyon olduğunu söyləyir. Ancaq belə deyil. Hesab edirəm ki, burada xərclər aşağıdır və bunu da bəlkə də fərqli formada qarşılamaq imkanları var. Yəni burada müxtəlif qurumlar var ki, bu işin koordinasiyasını həyata keçirər və əldə etdikləri tamaşaçı kütləsindən də qazanmaq istəyərlər. Belə olan təqdirdə, dövlət yükü bu qüvvələrlə, müxtəlif menecment qurumları ilə paylaşa bilər. O cümlədən də keçirilməsi nəzərdə tutulan Şahmat Olimpiadası üçün də söylədiklərim keçərlidir".

**Z.Oruc onu da qeyd edib ki, düşünmür ki, bu oyunlardan imtina Azərbaycanın etibarına təsir etmiş olar:** "Hazırda vətəndaşlarımızın kredit borclarının, süni və ya təbii qiymət artımlarının səbəbinin "Formula 1" olduğunu düşünmürəm. Sosial psixologiya elə qurulub ki, insanlar daha əvvəl müsbət kontekstdə gördüyü bir şeylərə sonradan mənfi formada yanaşa bilirlər. İndiki halda ölkə rəhbərliyi fəal bir şəkildə etiraz edən insanların da qaldırdıqları problemləri qısa müddətdə yerinə yetirməlidir ki, adamlar özünü dünyadan təcrid etmək durumuna gəlib çatmasınlar. Nəticədə onlar hətta 1 manatın qənaət rejimində qorunması naminə dünya üçün çox normal qarşılanan tədbirdən özlərini kənar saxlamasınlar".

❑ Əli RƏİS

# Valyutadəyişmə məntəqələrinin lisenziyaları ləğv olundu

## 6 min iş yeri bağlandı; Mərkəzi Bankın dollar satmamasının səbəbləri- əhali aldadılır...

**Ölkədə fəaliyyət göstərən valyutadəyişmə məntəqələri bağlanıb. Bu məlumatı musavat.com-a valyutadəyişmə məntəqələrinin sahibləri veriblər. Yanvarın 13-də onlara lisenziyaların ləğv edildiyi bildirilib və fəaliyyətlərini dayandırmaları tələb olunub.**




"Mərkəzi Bankdan xəbərdarlıq gəldi ki, sizin lisenziyalar ləğv edilib. Mənim valyutadəyişmə məntəqəm Azadlıq prospektindədir. Ümumilikdə 6 min iş yeri bağlandı. Səbəb olaraq da deyirlər ki, devalvasiyanı, süni bahalaşmanı "exchange"lər yaradırlar" - deyə, Amil Mürvətov adlı şəxs bildirib. Gün boyu paytaxtdakı bütün "exchange"lər bağlı olub.

Bildirilir ki, bankları şöbələrindən və filiallarından kənarda fəaliyyət göstərən valyutadəyişmə məntəqələrini bağlayırlar. Belə göstəriş valyutadəyişmə məntəqələrinə bankların rəhbərlikləri tərəfindən daxil olub.

Qeyd edək ki, bir neçə gündür ölkədə dollar ajiotajı güclənib. Valyutadəyişmə məntəqələri əhaliyə dollar satmaqdan imtina edir. Ekspertlər isə səbəb kimi Mərkəzi Bankın yanlış addımlarını göstərirlər. Hətta ciddi ehtimallar var ki, Mərkəzi Bankın elan etdiyi qədər dolları olmadığından satışı dayandırıb. Ancaq vəziyyəti izah etmədən, vətəndaşları aldadır.

**Ekspert Əkrəm Həsənov məsələ ilə bağlı musavat.com-a bildirib ki, dollar əslində bahadır və Mərkəzi Bank bunu elan etməkdən qorxur:** "Əgər rəsmi rəqəmlərə inansaq, Mərkəzi Bankın hazırda 6 milyard valyuta ehtiyatı var. Belə çıxır ki, onda Mərkəzi Bank valyuta ehtiyatlarını itirməmək üçün banklara sadəcə dollar satmır. Banklar da sata bilmir, çünki dolları yoxdur. Amma bu, eyni zamanda o deməkdir ki, dolların Mərkəzi Bank tərəfindən elan olunan rəsmi məzənnəsi əslində reallığa cavab vermir. Manatın faktiki devalvasiya göstəricisi çoxdur. Amma Mərkəzi Bank bunu etiraf etmək istəmir. Çünki o, doğrudan da dollar satmağa başlasa, dolları çox baha satmalıdır. O da bunu etiraf etmək istəmir, hamını aldadır. Və nəticədə hətta banklar da vəziyyəti başa düşür və əlində olan dolları da satmır. Başa düşürlər ki, əslində dollar bahalaşıb. Buna görə də heç kəs dollarından məhrum olmaq istəmir. Əslində Mərkəzi Bankın rəsmi məzənnəsi o deməkdir ki, həmin məzənnə ilə banklara istənilən qədər dollar satmağa hazırdır. Tutaq ki, mən çıxıb evimin qiymətini deyirəm. Bu, o deməkdir ki, kim gəlsə, o qiymətə evimi satacam. Mərkəzi Bank isə deyir ki, dolların qiyməti bu qədərdir, 1 manat 56 qəpikdir. Amma satmır. Məndə başqa şübhələr də var. Ehtimal var ki, milli valyuta Mərkəzi Bank tərəfindən elan ediləndən əslində dövriyyədə çoxdur. Dövriyyədə qeyri-rəsmi çap olunmuş və dövriyyəyə buraxılmış milli valyuta var. Başqa şübhəm də odur ki, bəlkə Mərkəzi Bankın heç o 6 milyardı da yoxdur. Mərkəzi Bank hamını aldadır, sadəcə, 6 milyardı yoxdur. Elan edib, göstərib, ancaq dollar sata bilmir. Çünki elan edir ki, bu dəqiqə dövriyyədə olan milli valyutanın həcmi 6 milyarddır. Mərkəzi Bank elan edir ki, altı milyard 730 milyon manat var. Amma deyir ki, özünün valyuta ehtiyatı 6 milyard 245 milyon dollardır. Dolları manat ekvivalentində, indiki məzənnə ilə vursaq, 9 milyard 794 milyon manat edir. Yəni 9 milyard 794 milyon ekvivalentində dollar var. Amma dövriyyədə olan milli valyuta 6 milyard 730 milyondur. Yəni 3 milyard artıq qalır hələ. Yəni sənin bu qədər dolların varsa, nədən qorxursan? Dövriyyədə manat azdır artıq. Səndə isə dollar çoxdur. Deməli, hətta bütün manatları da sənə versələr, yenə sənin dolların qalacaq. Buradan belə nəticə çıxır ki, ya dövriyyədə milli valyuta çoxdur, ya da Mərkəzi Bankın elan etdiyi qədər dolları yoxdur".

❑ RÖYA

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 9 (6330) 14 yanvar 2016

# "Rusiya 7 rayonun azad olunması qərarını təkbaşına verə bilməz"

**Bölgədə yaranan yeni münaqişələr, qonşu dövlətlər arasındakı gərgin münasibətlər, hətta müharibə riskləri Qarabağ məsələsini arxa plana keçirməkdədir. Ankara İqtisadiyyat və Texnologiyalar Universitetinin professoru, politoloq Toğrul İsmayıl "Yeni Müsavat"a durumla bağlı müsahibə verib. Qarabağ probleminin həllinin dalana dirəndiyi indiki situasiyanın təhlili ilə bağlı olan söhbətimizi sizə təqdim edirik.**



***- Toğrul bəy, Aydın Universitetinin professoru Abdulhaluk Çay deyib ki, Qarabağın erməni işğalı altında olduğunu türk dövlətləri arasında təkcə Azərbaycanla Türkiyə bilir, o biri Asiya ölkələrinin bundan xəbəri yoxdur. Siz bu fikirlərlə razısınızmı və ümumiyyətlə, digər türk dövlətlərinin Qarabağ məsələsinə laqeyd münasibətinin səbəbi nədir?***

- Hocamız nə deyibsə, özü bilər. Amma mən inanmıram ki, həm MDB-dəki dövlətlər, həm TürkPA, həm də ikitərəfli münasibətlər qurduğumuz digər türk dövlətləri Qarabağ problemindən xəbərsizdir. Ən azından ordakı siyasi elita, mütəxəssislər məsələni çox yaxşı bilir. Burada bir məsələni söyləmək lazımdır ki, düzdür, türk birliyi istiqamətində işlər aparılır. Lakin hələ bu yolda çox ciddi addımlar atılmalıdır. Yəni Qırğızıstan prezidentinin qondarma "soyqırım" abidəsi önünə çələng qoyması məsələsi əsas etibarilə oradakı siyasi elitlərin milli məsələlərə çox həssas davranmadığını göstərir. Tutaq ki, Akayev bilmirdi "soyqırım"nədir, bəs axı, Almazbek Atambayev Türkiyədən olan heyətlərlə görüşür, ondan sonra qayıdıb deyir ki, "Türkiyə düz etmədi, Rusiyadan üzr istəməlidir". Bunu demək lazımdır ki, bu cümhuriyyətlərindəki siyasi liderlər əfsuslar olsun ki, öz bəyanatlarında və çıxışlarında beynəlxalq hüquqa istinad etmir, sadəcə, gündəlik maraqlardan çıxış edirlər. Bəli, Qırğızıstan xalqının Rusiyaya qarşı çıxması imkansızdır. Eyni zamanda o, Türkiyə ilə münasibətləri pozmaz. Amma bir daha təkrar edirəm, məsələ heç də həmin ölkələrdəki siyasilərin real vəziyyətdən xəbərsiz olması ilə bağlı deyil. Bu, bölgədəki konyukturadan qaynaqlanır. Hələ ki bölgədə Rusiya güclü dövlətdir. Ona görə də bir çox müstəqil dövlətlər toplumuna aid olan ölkələr də bunu göz önünə alaraq mövqe bildirirlər. Ermənistana yanaşmaya da bu çərçivədən baxırlar. Çünki Ermənistan bölgədə açıq şəkildə, Lavrov demişkən, Rusiyanın forpostudur.

***- Türkiyənin mövqeyi məlumdur. Digər türk dövlətlərinin Qarabağ məsələsinə yanaşmada Azərbaycanın yanında olması məsələnin ədalətli sözümü üçün nə dərəcədə faydalı olardı?***

- Məncə, bu dövlətlərin Azərbaycanın yanında olması müsbət hal olardı. Nə qədər çox dövlət Azərbaycanın mövqeyini müdafiə etsə, bunun yalnız faydası var. Amma Qarabağ məsələsinin həlli türk dövlətlərindən daha çox digər dövlətlərin müstəvisinə çıxıb. Zatən, Türkiyə təkbaşına bu məsələdə yetərincə dəstək verir və böyük gücdür. Amma buna baxmayaraq, Qarabağ məsələsi artıq Azərbaycan-Ermənistan arasındakı lokal münaqişədən çıxıb, beynəlxalq güclərin oyun meydanına çevrilib. Ona görə də BMT-nin qəbul etdiyi qərarlara, daha ciddi məsələlərə baxmayaraq, Qarabağ məsələsində hələ də irəliləyiş yoxdur. Geosiyasi vəziyyət dəyişməsə, Rusiya bölgə maraqlarını dəyişdirməsə, yaxud Amerikanın bölgədəki maraqları fərqli şəkildə inkişaf etməsə, Qarabağ məsələsinin həllində hər hansı dəyişiklikdən danışmaq mümkün deyil.

***- Qarabağ savaşının yenidən alovlana biləcəyi ilə bağlı ekspert rəyləri səslənir. Türkiyə-Rusiya, həmçinin Səudiyyə-İran gərginliyi kontekstində Qarabağda böyük müharibə ehtimalı nə qədərdir?***

- Qarabağda daimi sülh olmadıqca biz hər zaman silahlı qarşıdurmadan danışa bilərik. Yəni bu, heç bir zaman istisna deyil. Burda sadaladığınız faktorlar da önəmlidir. Amma mən zənn etmirəm ki, Türkiyə-Rusiya, həmçinin Səudiyyə-İran qarşıdurması Qarabağ münaqişəsinin alovlanmasına səbəb ola bilər. Çünki Qarabağ problemi bu ölkələrin deyil, daha böyük qüvvələrin, yəni bir tərəfdən Amerika-Avropa Birliyi, o biri tərəfdən Rusiya kimi güclərin balanslı oyununa ağırlıq verən bir problemdir. Amma yenə deyirəm, daimi sülh olmadığı üçün hər zaman Qarabağ cəbhəsində böyük qarşıdurmalardan danışmaq olar.

***- Amma fakt budur ki, Rusiya bölgədəki gərginlikləri əsas götürərək Ermənistandakı hərbi gücünü artırır...***

- Rusiya bölgədə ən böyük oyunçu olduğu üçün Rusiyanın maraqları doğrulsa, çox şey dəyişə bilər. Yəni bugünkü, yaxud başqa hadisəni götürməyək. Rusiya bölgədə güclü oyunçudur və istənilən məsələni istədiyi şəkildə öz xeyrinə dəyişə bilər. Buraya silahlı münaqişə də daxildir.

***- İndiki situasiyada Qarabağ münaqişəsini alovlandırmaq Rusiyaya sərf edirmi?***

- Məsələ burasındadır ki, Rusiya bu dəqiqə çoxşaxəli oynamaq üçün nə qədər güclüdür, bunu demək çox çətin məsələdir. Yəni Suriyaya müdaxilədən sonra Ukraynadakı hadisələrin nə qədər zəiflədiyini gördük. Dolayısı ilə bu, onu göstərir ki, Rusiya eyni vaxtda bir neçə yerdə problem yaradacaq tam gücə sahib deyil. Ona görə də növbəti münaqişə ocağının ona sərf etdiyini zənn eləmirəm.

## "Qarabağ məsələsi artıq Azərbaycan-Ermənistan arasındaklı lokal münaqişədən çıxıb"

***- Amma Ermənistandakı hərbi bazasına əlavə canlı qüvvə və hərbi texnika daşıyır...***

- Buna sadəcə Ermənistan bazası prizmasından baxmayaq. Rusiya, ümumiyyətlə, cənub bölgəsini, Qara dəniz regionunu silahlandırdı, Ermənistandakı əsgəri gücünü tamamilə yenilədi, Xəzərdəki hərbi gəmilərdə indiyədək görünməyən dərəcədə silahlanma məsələsi var. Eyni zamanda Moskva Şimalda da bazalarını gücləndirməyə davam edir. Sadəcə, Qarabağ münaqişəsinə görə Ermənistan məsələsi bizim diqqətimizi daha çox cəlb edir.

***- Qarabağ müharibəsi başlayacağı halda rus əsgərinin Azərbaycana qarşı döyüşməsi real görünürmü?***

- Rusiyanın Ermənistanla bir çox sahədə hərbi anlaşması var. Əvvəla, Rusiya və Ermənistan KTMT üzvüdür, burdan qarşılıqlı yardım var. İkincisi, Rusiya ilə Ermənistan arasında ikili hərbi anlaşma var ki, hər hansı kənar ölkə bu iki ölkəyə hücum etsə, bunlar bir-birinə yardım edəcək. Dolayısı ilə təbii ki, baş verə biləcək hər hansı qarşıdurmada Rusiyanın Ermənistanın yanında yer alması ehtimalı yüksəkdir. Qarabağ məsələsinə gəlincə, burada vəziyyət bir az başqadır. Qarabağ Azərbaycanın daxili məsələsidir. Azərbaycan öz daxilindəki ərazilərdə beynəlxalq qanunlar çərçivəsində antiterror əməliyyatları apara bilər. Amma indiyədək Azərbaycan beynəlxalq anlayışlara və hüquqa istinad edərək sülh danışıqları yolunu tutub. Ancaq əgər Azərbaycanla Ermənistan arasında böyük savaş başlarsa, təbii ki, Rusiya mütləq bir tərəfdə yer alacaq, o da Ermənistan tərəfi olacaq.

***- Bəs o halda Türkiyənin Azərbaycanın yanında yer alması nə dərəcədə real görünür?***

- Türkiyə Azərbaycanı nə qədər müdafiə edə bilər, bunu araşdırmaq lazımdır. Birincisi, Azərbaycanla Türkiyə arasında müdafiə məsələlərində hərbi anlaşma yoxdur. Azərbaycan eyni zamanda NATO üzvü də deyil. Yaxud başqa ölkələrlə tam hərbi anlaşmalara sahib deyil. Belə olduğu halda Azərbaycanın yanında yer alacaq dövlətlərin olduğunu demək olduqca çətindir. Burada geosiyasi maraqlar önə çıxacaq. Əsasən də ABŞ və Avropa Birliyi, eyni zamanda da Türkiyənin maraqları. Əgər NATO, yaxud ABŞ Azərbaycanla bağlı açıq müdafiə məsələsini gündəmə gətirməzsə, Türkiyənin təkbaşına Azərbaycanı müdafiə etməsi həm hüquqi, həm də digər cəhətlərdən olduqca çətindir.

***- O halda, deməli, təcili hərbi əməkdaşlıqla bağlı addımların atılmasına ehtiyac var, yoxsa artıq gecdir?***

- Biz onu neçə illərdir söyləyirik ki, Azərbaycan balanslı siyasət yürütsə də, bu tərəfsiz siyasət bölgədəki güclərin ona fürsət verdiyi həddə qədərdir. Cənubi Qafqaz bölgəsi də o qədər həssas bölgədir ki, hər an dəngələr dəyişə, tərəfsiz siyasət sonda ölkənin təklənməsinə səbəb ola bilər.

***- Rusiya mənbələri vaxtaşırı 7 rayonun erməni işğalından azad olunacağı ilə bağlı xəbərləri dövriyyəyə buraxır. Belə yanaşma var ki, əslində 7 rayonun azadlığı Rusiyanın özünün maraqlarından irəli gəlir. Yəni bu ərazilərin azad olunması halında ora öz "sülhməramlılarını" yerləşdirmək, İranla sərhədi nəzarətə almaq və Ermənistana quru yolunu açmaq istəyir. Bu ehtimallar nə dərəcədə realdır?***



Toğrul İsmayıl

## "Böyük savaş başlarsa, Rusiya mütləq Ermənistan tərəfdə yer alacaq"

- Təbii ki, bu, asan məsələ deyil. Rusiya 7 rayonun azad olunması və "sülhməramlılar"ın yerləşdirilməsi ilə bağlı təkbaşına qərar verə bilməz. Çünki buradakı məsələlər ATƏT-in, Minsk Qrupu həmsədrlərinin müzakirə mövzusudur. Rusiyanın təkbaşına verə biləcəyi hər hansı qərar onun bölgəyə açıq müdaxiləsi kimi qiymətləndiriləcək. Amma təbii ki, Rusiyanın belə planlarının və istəklərinin olması mümkündür. Rusiyanın xarici konsepsiyasına da baxdığımız zaman görürük ki, "Rusiya əsgərinin olduğu yerdə var" düşüncəsi açıq şəkildə özünü göstərir. Krımın işğal edilməsi, Suriyaya hərbi müdaxilə, Orta Asiya ölkələrindəki mübarizə, Abxaziyada hərbi bazanın yaradılması da bunun göstəricisidir. Bütün bunlar onun təzahürüdür ki, Rusiya 2013-cü ildə xarici siyasət konsepsiyasına yumşaq güc əlavə etsə də, hələ də güc siyasətinə daha çox üstünlük verir. Təbii ki, Rusiya çox istərdim ki, işğal olunmuş bölgəyə, təkcə 7 rayona deyil, həmçinin Dağlıq Qarabağa "sülhməramlılar"ını yerləşdirsin. Əgər Rusiya bu planını reallaşdırsa, həm Azərbaycana, həm də Ermənistana nəzarət etmək imkanları xeyli artar.

***- Bakı torpaqların erməni işğalından azad olunması müqabilində bu razılaşmaya gedə bilərmi?***

- Bakı təktərəfli qaydada, məxfi şəkildə bu razılaşmaya gedərsə, çox ağır şərtlərlə, çox ciddi problemlərlə qarşı-qarşıya gələ bilər. Ümumiyyətlə, tək Rusiyanın deyil, hər hansı xarici gücün hərbi qüvvəsinin Azərbaycanda olması gərginliyi artırar. İstər Rusiya, istər ABŞ, istər İsrailin Azərbaycanda hərbi baza qurması ortalığı qarışdıra bilər. Çünki bütün dövlətlər öz maraqlarından hərəkət edir, beynəlxalq münasibətlər də bunun üzərində qurulub. Bəzən Avropa Birliyi daxilindəki ölkələrin də maraqları üst-üstə düşmür. Türkiyə və Azərbaycanın, yaxud digər türk dövlətlərinin hər birinin öz maraqları var.

Xarici siyasətin təməlində yaşayan əsas prinsip ölkənin içində yaşayan vətəndaşların gələcəyini və yaşamını təminat altına almaqdır. Qarabağ məsələsinin həlli həm də bu mənada önəmlidir. Çünki o torpaqlarda daimi yaşayan insanlarımız on illərdir öz yurdundan didərgin düşüb. Onları dədə-baba torpaqlarına qaytarmaq bizim Azərbaycan dövlətinin əsas vəzifəsidir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 9 (6330) 14 yanvar 2016



# Dərmanların qiymətini süni şəkildə artıran daha bir şirkət rəhbəri tutuldu

**"Novo Vita P" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən dərman vasitələrinin qiymətinin süni surətdə artırılması barədə Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş vətəndaş müraciəti əsasında istintaq-əməliyyat tədbirləri həyata keçirilib.**

Baş Prokurorluğun mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, keçirilmiş istintaq-əməliyyat tədbirləri ilə Bakı şəhəri, Nəsimi rayonu, Mirəli Qaşqay küçəsi, 150A saylı ünvanda yerləşən "Novo Vita P" MMC tərəfindən ölkəmizə idxal olunan dərman vasitələrinin qiymətinin süni surətdə dəfələrlə artırılması, gömrük bəyannaməsi olmayan dərman vəsitələrinin anbarda saxlanması və qanunsuz satılması müəyyən edilib.

Bundan başqa, cəmiyyətin idxal və satışı ilə məşğul olduğu çoxsaylı dərman vasitələrinin ayrı-ayrı həkimlər tərəfindən xəstələrə yazılması müqabilində sonunculara verilən pul məbləğləri (faizlər) yazılmış jurnallar, reseptlər, qara mühasibatlığın aparılmasına dair kitablar və istintaq üçün əhəmiyyət kəsb edən digər qeydlər aşkar edilərək götürülüb.

"Novo Vita P" MMC-nin icraçı direktoru İqbal Heydər vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə, özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə dərman vasitələrinin qiymətini süni şəkildə dəfələrlə qaldıraraq vətəndaşların hüquqlarına və qanuni mənafelərinə mühüm zərər vurmasına şübhələr üçün əsaslar olduğundan Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddəsi ilə cinayət işi başlanıb, İ.Heydərov şübhəli şəxs qismində saxlanılıb.

Hazırda cinayət işi üzrə təqsirkar şəxslərin müəyyən edilərək cinayət məsuliyyətinə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.



# Devalvasiyaya etiraz - çadır toylarına keçid...

## Toy israfçılığından yeganə çıxış yolu budur

**Manatın devalvasiyasının zərbə vurduğu sahələrdən biri də toy biznesidir. Qəzetimizin ötən saylarında bildirmişdik ki, bir çox şadlıq saraylarında, restoranlarda ciddi durğunluqdur. Hətta yanvar ayında cəmi bir toy mərasimi üçün sifariş qəbul edən restoranlar da vardı.**

Təbiətin qanunudur: insanlar evlənməli, nəsil artırmalı və bəşəriyyət öz axarı üzrə inkişaf etməlidir. Bəs necə etməli? İqtisadi böhran Azərbaycanda evlənmək istəyənlərin də gözünü qorxudubsa, bunun səbəbi sözügedən prosedurun həddən artıq məsrəfli olmasıdır.

Xərclərin əsas hissəsi isə heç şübhəsiz ki, şadlıq evlərinə sərf olunur. İnsanlar minlərlə manatı şadlıq sarayına ödəyir. Hətta bəzi hallarda şadlıq sarayına borclu da qalır: "Bəyi girov saxladılar", "Şadlıq sarayına borcunu ödəyə bilmədi, bəyin atası girov qaldı"... Neçə dəfə bu sayaq xəbərləri oxumuşuq...

Hətta indiki iqtisadi böhran şəraitində toy keçirməyə tərəddüd edənləri görənlər yarızarafat-yarıciddi şəkildə "bəlkə bizim millətin şöhrətpərəstliyinin öhdəsindən bu devalvasiya gəldi" fikrini səsləndirirlər. Bəli, "camaat nə deyər" prinsipi ilə şadlıq sarayı sahiblərini varlandırmağı özünün ümdə vəzifəsi hesab edən azərbaycanlılar üçün bu krizisin bir çıxış yolu olduğunu düşünənlər az deyil.

Və bunun alternativi də var. Toy etmək üçün yeganə ünvan şadlıq sarayları deyil. Bakı kəndlərində illərdən bəri davam edən çadır toyları artıq populyarlaşmağa başlayıb. Komplekslərindən qurtulanlar bu üsula baş vura bilərlər.

Çadır toylarına keçmədən öncə xatırladaq ki, insanların toyxana biznesinə verdikləri yersiz töhfələrlə bağlı illərdir müzakirələr gedir. Hətta hakimiyyət deputatları bunun qarşısını almağın mütləqliyi barədə fikirlər səsləndirirlər. Yeni Azərbaycan Partiyası (YAP) icra katibinin müavini, deputat Siyavuş Novruzov da toy mərasimlərində israfçılığın əleyhinədir.Azvision.az-a açıqlamasında S.Novruzov deyib ki, toy mərasimləri ailə xoşbəxtliyinə deyil, restoran müdirlərinə işləyir.

Yaxşı, bəs çadır toylarının toy sahibinin, qonaqların, gənc cütlüyün cibinə necə xeyri var? İlk növbədə bu toylarda menyu sərbəstdir. Süfrədə hansı təamların, neçə cür, neçə ədəd olmasını ev sahibi özü müəyyənləşdirir. 15 salatı masaya düzdürüb, "düşmən bağrı çartlatmaq" kimi bir öhdəlikdən söhbət gedə bilməz.

Çadır toylarında aşpazın işi çətin olur. O, masanı daim təzə, isti yeməklərlə təmin etməlidir. Menyu isə o qədər də zəngin olmur: bozartma, küftə bozbaş, kabab, buğlama... Bunlarla paralel, qəlyanaltıların da sayı az olur. Beləcə, masa bir neçə dəfə ucuz başa gəlir. İnsanlar həm dadlı, təzə yeməklərlə doyur, həm də ev sahibi əlavə xərc çəkmir.

Bu arada çadır toyuna gələnlər də nəmər olaraq astronomik məbləğdə pul yazdırmır. Yəni restoranda masanın qiyməti 40-50 manat olanda qonaq istər-istəməz bundan artıq məbləğdə nəmər yazdırmalı idi. Amma çadır toyları üçün belə bir öhdəlik yoxdur. İnsanlar, necə deyərlər, "könlündən qopan" məbləği gənc cütlüyə hədiyyə edir.

Bu dəbin Bakı kəndlərində adət halını alması insanların keçmiş adətlərinə maraq göstərməsidir. Amma bundan sonra çadır toyları geniş vüsət alacaqsa, bu, sırf maddiyyatla bağlı olacaq. Qonaqlar boyat yemək yeməyəcək, ev sahibi isə daha az xərcə düşəcək. Ümumiyyətlə, çadır toyları Binəqədi, Goradil, Biləcəri, Maştağa, Digah, Novxanı və Nardaran kəndlərində keçirilir. Azərbaycanın bölgələrində isə daha çox cənub rayonları bu ənənəyə sadiqdir.

❑ **Sevinc TELMANQIZI**

## TƏBRİK



*Əzizimiz, gül balamız, göyçək nazımız, Zəhra, səni ad gününün münasibətilə atan Taleh, anan Günay, baban Gümüş, nənələrin Sara, Nazilə, dayın Ceyhun, əmilərin Malik, Əhməd ürəkdən təbrik edirlər. Sənə xoşbəxtlik arzulayırlar.*

# Məktəbli qızın intiharının səbəbi: direktordan açıqlama



**Bərdədə 16 yaşlı məktəblinin intiharının səbəbi onun psixi problemlərinin olması olub. Hacallı kənd sakini 1999-cu il təvəllüdlü Aytac Zamin qızı Surxaylı uzun müddətdir ki, psixoloji problemlərdən əziyyət çəkirmiş.**

"Aytac intihar etməmişdən əvvəl 1 həftə idi dərsə gəlmirdi. Xəstəliyi ilə bağlı müalicə alırdı".

Bunu musavat.com-a açıqlamasında E.Zeynalov adına 1 saylı Hacallı kənd tam orta məktəbinin direktoru Səyyarə Zeynalova deyib.

Aytacın məktəbin tərbiyəli, savadlı şagirdlərindən olduğunu deyən **S.Zeynalova** bildirib ki, şagirdin məktəbdə heç bir problemi olmayıb: "Ən yaxşı şagirdlərimizdən biri olub. Dərslərində də problemi olmayıb. Məktəbdə yoldaşları ilə də münasibətləri yaxşı olub. Müəllimlərinin də Aytacın dərslərinə hazırlığından şikayəti olmayıb. Psixi problemlərinin olduğunu bilirdik. Bir həftə idi dərsə gəlmirdi. Xəstəliyi ilə bağlı müalicə alırdı. Bu barədə məlumatlı idik. Bu xəbər məni çox üzdü".

Hacallı bələdiyyəsinin sədri Akif Əhmədov da musavat.com-a açıqlamasında intiharın səbəbinin məktəblinin psixi probleminin olduğunu bildirdi: "Aytacın psixi problemi var idi. Onun atası və əmisi də ruhi-əsəb xəstəliyindən əziyyət çəkirdi. Aytac ruhi əsəb dispanserində də qeydiyyatda idi. Həkim müalicə üçün evlərinə də gəlirdi".

**A.Əhmədovun sözlərinə görə, Surxaylı ailəsinin maddi vəziyyəti həddindən artıq çətindir:** "Ailənin vəziyyəti çox çətindir. Maddi sıxıntıları böyükdür. Atası da xəstədir. Ailədə Aytacdan başqa 2 uşaq da var. Aytac çox tərbiyəli, sakit və savadlı qız idi. Təəssüflər olsun ki, bu cür xəstəlikdən əziyyət çəkirdi. Bir neçə dəfə evdən qaçmışdı".

Qeyd edək ki, faktla bağlı Bərdə Rayon Prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb, istintaq gedir.

❑ **İlkin MURADOV**

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

**Azərbaycanda fəaliyyət göstərən turizm şirkətlərinin durumu kritik həddə çatıb. Buna səbəb manatın devalvasiyasıdır. Xarici turlar dollar və avro ilə hesablandığı üçün turizmçilər dalana dirənib. Bu barədə bizə açıqlamasında "Fly Travel" şirkətinin sahibi Məmməd Əliyev məlumat verdi. Bildirdi ki, turizm şirkəti olaraq dollar tapıb ala bilmədikləri üçün tur satın almaq da mümkünsüz olub: "Dollar baha olduğu üçün turların qiyməti də hədsiz yüksəlib. Bu, əksəriyyətin cibinə uyğun deyil. Bizə qiymətlər dollarla verilir. Onu da manata çevirəndə baha çıxır".**

# Azərbaycanlı turizmçilərə devalvasiya zərbəsi

## Şirkətlər dollar ala bilmədiyi üçün tur əldə edə bilmir, bir-bir bağlanırlar; ölkədə qış turizmi bir günlük turların ümidinə qalıb



**Müsahibimizin sözlərinə görə, qışda insanlar adətən İstanbul, Dubay, Uludağ və Ərzurum səyahətini tərcih edirdi. Amma indi bu turlar da donub:** "Manatın devalvasiyası o qədər güclü olub ki, insanlar ancaq zəruri ehtiyacları barədə düşünməyə məcburdular. Səyahət keçib arxa plana. Bir az pulu olanlar da gələcəyi düşünüb, pulunu saxlayır, xərcləmək istəmirlər".

M.Əliyev dedi ki, Azərbaycandakı hotellər qiymətləri bir az aşağı salsalar da, tələbat yoxdur. Qiymətini aşağı salan hotellər arasında Qəbələdəki "Tufandağ" hotelinin adı yer alır. Onlar qiyməti 20-30 AZN məbləğində endiriblər. Bununla belə, müraciət edənlərin sayında kəskin azalma var.

Bu arada müsavat.com-a məlum olub ki, manatın son devalvasiyasından sonra bir neçə turizm şirkəti fəaliyyətini dayandırıb. Bunların arasında "Ulduz Travel", "Etna Travel" və "SB Travel" şirkətləri var.

Bu səbəbdən turizm şirkətləri daha çox diqqəti daxili turlar üzərinə cəmləşdirib. Daxili turlardan ən geniş yayılanı isə Şahdağ və Tufandağ turlarıdır. Əsasən qrup şəklində turlara üstünlük verən firmaların bununla bağlı iki variantı var.

Məsələn, əksər firmalar bir günlük Tufandağ turunun qiymətini 23 AZN olaraq müəyyənləşdirib. Qiymətə nəqliyyat xidməti (komfortlu avtobus), Tufandağ Qış-Yay Turizm Kompleksinə giriş, qidalanma (səhər yeməyi), tur rəhbəri, professional fotosessiya və dönüşdə çay süfrəsi daxildir.

Amma bu turların 33 AZN-lik versiyası da var. Həmin versiyaya isə səhər yeməyi ilə yanaşı, nahar da daxildir.

Eyni tariflər Şahdağ turu üçün də keçərlidir.

Amma Şahdağ turunun 1 gecə 2 günlük versiyası da var ki, bu, 60 AZN məbləğindədir. Bu sayaq turlarda isə görüş saat 06:30-da baş tutur. Daha sonra avtobusda turistlərə səhər yeməyi verilir, Şahdağ kompleksinə gedilir, bir neçə saat burda vaxt keçirildən sonra saat 18.00-da hoteldə yerləşdirilir, növbəti gün də eyni qaydada səhər yeməyi verilir, turistlər kompleksə gedir. Saat 17.00-da isə Şahdağ kompleksindən çıxış nəzərdə tutulur.

Azyaşlılar üçün əlavə oturacaq və əlavə yemək sifariş verilməzsə, onlar bu turlardan pulsuz istifadə edirlər. Ödəniş tur başlamazdan ən azı bir gün əvvəl həyata keçirilməlidir. Hətta turları təşkil edən təşkilatlardan bildirilir ki, 10 nəfər və yuxarı sayda turist gətirən təşkilatçı hədiyyə olaraq pulsuz bilet qazanacaq.

Amma 14 fevral - sevgililər günü münasibətilə də bəzi turizm firmaları təkliflərini açıqlayıblar. Bunların arasında "Praqada sevgililər günü" paketi diqqət cəlb edir. Belə ki, 6 gecə 7 günlük paketin qiyməti 599 AZN-dir. Qiymətə aviabilet, transfer, hotel, sığorta xərcləri daxildir.

Bundan başqa, sevgi turları adı ilə maraqlı turlar satışa çıxarılıb. Bu turlar 14 fevraldan başlayaraq, 4 gün-3 gecəni əhatə edir. Şəhərlərə və şərtlərə diqqət:

**İstanbul- 340 AZN**
**Kapadokya- 530 AZN**
**Roma-640 AZN**
**Milan-650 AZN**
**Paris -680 AZN**

Qiymətə aviabilet, otel, səhər yeməyi və sığorta daxildir.

Amma "qışda yay istirahəti" başlığı ilə 399 dollar məbləğində, bir həftəlik Şarm əl Şeyx turları da turizm şirkətlərinin təqdim etdikləri sırasındadır.

Turizm mütəxəssislərinin bildirdiyinə görə, Azərbaycanda ən çox -Bakı-Abşeron, Şəki-Zaqatala, Astara-Lənkəran bölgəsini daha çox inkişaf etmiş turizm zonası hesab etmək olar. Quba-Xaçmaz bölgəsi də hər zaman turistlərin diqqət mərkəzində olub. Gəncədə isə turizmin inkişafı zəifdir.

Hesab edək ki, qışda turizmin inkişaf etdiyi bölgələrə səfər etdiniz. Məsələn, Şəkiyə. Araşdırmalarımıza görə, buradakı hotellərdə səhər yeməyi verən iki nəfərlik sadə otaqlar əvvəlki kimi 90 manata, lüks otaqlar isə 150 manata təklif edilir. Səhər yeməyi verilməyən köhnə tipli hotellərdə isə bir nəfərlik otaqda 30 manata, iki nəfərlik otaqda isə 50 manata qalmaq olar. Burdakı hotellərin demək olar ki, hamısında ənənəvi menyu var - Şəki pitisi.

Amma Xəzər dənizi sahillərindəki istirahət obyektlərində, habelə yayın populyar istirahət zonası olan Nabranda da istirahət obyektlərinin böyük əksəriyyəti qışda öz fəaliyyətini dondurur. Fəaliyyət göstərən məkanlarda isə otaqların qiyməti 25-80 manat arasında dəyişir.

❑ **Sevinc TELMANQIZI**

# Devalvasiya toy biznesini də çökdürüb

## İqtisadçı ekspert: "Bir çox şadlıq evlərinin fəaliyyəti dayana bilər"



**Devalvasiya toy biznesini də çökdürüb. Belə ki, artıq toy edənlərin sayında kəskin azalma müşahidə edilir. Hazırda restoranlardakı real vəziyyətin necə olduğunu öyrənmək üçün onların bir neçəsi ilə əlaqə saxladıq. Restoranların demək olar ki, hamısından devalvasiyanın onlara da təsir etdiyini, toy sifarişlərinin azaldığını bildirdilər. Qiymətləri sabit saxlasalar da, heç bir toy sifarişi olmadığını deyən restoran inzibatçıları hətta əvvəldən toy sifarişi edib, sonradan onu təxirə salanların olduğunu dedilər. Məhz bu səbəblərə görə restoranlar iş birliyi etdiyi müxtəlif qida firmalarının əksəriyyəti ilə əməkdaşlığı dayandırmaq məcburiyyətində qalıb. Həmçinin toy sifarişlərinin azlığı restoranlarda çalışan işçi personalının və bir sıra musiqiçilərin ixtisara düşməsinə də səbəb olub. Restoranlarda əvvəl 25-30 manatlıq menyuya musiqi, gəlin maşını kimi xidmətlər də aid edilirdisə, indi bunlar menyudan çıxarılaraq əlavə xidmət kimi təklif edilir və hər birinin də ayrıca qiyməti var.**

Bir sözlə, devalvasiya toy-restoran biznesini də öldürüb. Maraqlıdır, vəziyyət bu cür davam edərsə, restoran və şadlıq evlərini hansı sonluq gözləyir?

**İqtisadçı ekspert Rəşad Həsənov bildirdi ki, bir çox şadlıq evlərinin fəaliyyəti dayana bilər:** "Ümumiyyətlə, problem yarandığı halda iqtisadi böhranlar bütün sferalara öz təsirlərini göstərir. O cümlədən də toy biznesinə artıq müəyyən qədər öz təsirini göstərib. Belə ki, bu istiqamətdə əvvəlki qiymətlərin qorunub saxlanması, əvvəlki qiymətlərdə xidmətlərin təklif edilməsi bu sferada fəaliyyət göstərən biznes subyektləri üçün zərərə gətirib çıxarır. Ona görə də bu istiqamətdə qiymətləri bahalaşdırmırlar. Qiymətləri bahalaşdırırlarsa, bu, qarşı tərəfin əlavə xərclərinə gətirib çıxarır. Məhz bu səbəbdən də son 20 gün ərzində əvvəlcədən razılaşdırılmış məclislərin təxirə düşməsi müşahidə olunur. Bundan sonrakı dövr üçün sifarişlərin qəbul edilməsi də faktiki olaraq dayanıb. Bunun da əsas səbəbi odur ki, əhali yaranmış situasiyanı qiymətləndirə, proseslərin hansı məcraya qədər davam edəcəyini bilmir. Böhranın nə qədər dərinləşəcəyini əvvəlcədən müəyyənləşdirmək mümkün deyil. Bir çox hallarda itkilərin qarşısını almaq məqsədilə vətəndaşlar toyların təxirə salınması və bunların nisbətən normal şərtlər daxilində həyata keçirilməsi qərarını qəbul edirlər. Əgər bundan sonra böhran davam edəcəksə, təbii ki, toyların sayında azalma baş verəcək. Xüsusilə də şadlıq saraylarının fəaliyyəti dayanma həddinə qədər azala bilər. Lakin daha ucuz xidmətlər təklif edən şadlıq evlərinin fəaliyyətində nisbətən dinamika müşahidə olunacaq. Çünki əhali daha aşağı qiymətli xidmətlərdən istifadəyə meyllənəcək. Ümumiyyətlə götürdükdə isə düşünürəm ki, bu proseslər uzunmüddətli dövr üçün Azərbaycanda formalaşan bahalı, dəbdəbəli toy məclisləri ənənələrinin nisbətən daha qənaətcil formasının yaranmasına gətirib çıxaracaq".

**Bir sıra tanınan restoranların menyularındakı ixtisarlara və bu xidmətlərin ayrıca hesablamasına, qiymət artımına gəlincə isə iqtisadçı bu cür gəlir əldə etməyin mümkünsüz olduğunu dedi:** "Bazar iqtisadiyyatının ən gözəl xüsusiyyətlərindən biri məhz bazarın özü-özünü tənzimləməsidir. Əgər kimsə qiymət artımlarına gedirsə, bu o deməkdir ki, hansısa formada onun xidmətindən istifadəyə tələb var. Ola bilsin ki, bahalı xidmət göstərir. Amma buna baxmayaraq, onun xidmətlərindən istifadə edən sosial sfera üçün müəyyən ciddi problemlər olmadığına görə o xidmətlərdən istifadə edirlər. Bahalaşma səbəbindən onlar da qiymətləri artırır. Amma bir çox hallarda da müşahidə olunur ki, bu kimi restoranlar düzgün strategiya həyata keçirmir. Bu, nəticədə onların dövriyyələrinin daha çox azalmasına gətirib çıxarır. Yəni bu prosesin tənzimlənməsi müəyyən vaxt tələb edir. Bu vaxt çərçivəsində də müəyyən olunacaq ki, qiymətlər hansı səviyyədə müəyyənləşəcək. Böhran dərinləşdikcə xidmət sferasındakı qiymətlərdə ucuzlaşma müşahidə ediləcək. Baxmayaraq ki, onların aldığı məhsullarda bahalaşma olacaq. Bu günə qədər bu sferada çox ciddi marja var idi. Hətta bəzi hallarda 60-70 faizə qədər yüksəldirdi. Onların təklif etdiyi xidmətlə əldə etdiyi məbləğ bundan sonrakı dövrdə məcbur qalacaqlar ki, öz marjalarını azaltmaqla qiymətlərin azaldılması istiqamətində fəaliyyət göstərsinlər. Təbii ki, bununla razılaşmayan sahibkarlıq subyektləri öz fəaliyyətlərini dayandırmaq məcburiyyətində qalacaqlar. Əhalinin sosial vəziyyəti nəzərə alınmaqla daha az gəlir götürüb sadəcə mövcudluğunu və müştəri potensialını qoruyub saxlamağa cəhd göstərəcəklər. Bu cür olacaqsa, sahibkar fəaliyyətini davam etdirə biləcək. Əksi olarsa, iflas olacaq, yaxud da ki, öz fəaliyyətini dayandıracaq".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 9 (6330) 14 yanvar 2016

# Mağaranı evə çevirdi

Avstraliyada sağalmaz xəstəliyə tutulan gənc 250 milyon illik mağaranı modern evə çevirib. Ölkənin önəmli şirkətlərindən birinin sahibi olan Angelo Mastropietronun həyatı öz xəstəliyini biləndən sonra tamamilə dəyişib. Gənc şirkət sahibi xəstəliyinin daha da inkişaf etməməsi üçün həyatını və ətrafındakı hər şeyi dəyişdirməyə qərar verib.



Worcestershire bölgəsində bir mağara alan Angelo 70-80 ton daşı daşımaq və evini inşa etmək üçün təxminən 1000 saat çalışıb. Uzun müddət çalışdıqdan sonra 250 milyon illik mağaranı evə çevirib və orada yaşamağa başlayıb. 160 min sterlinq xərcləyərək özünə yeni ev hazırlayan Angelo artıq sakit yerdə yaşadığı üçün özünü xoşbəxt hiss etdiyini deyir. Gənc biznesmen mağara həyatının onun xəstəliyinə müsbət təsir edəcəyinə inanır.



# Şabalıdın inanılmaz faydaları və zərəri

Mütəxəssislər şabalıdın fiziki və zehni yorğunluğa qarşı mübarizə aparmaqda ən effektiv vasitə olduğunu deyirlər. “Omeqa 3" və ”Omeqa 6" yağları ilə zəngin şabalıd yaddaşın güclənməsində, hətta alsheymer xəstəliyi ilə mübarizədə çox faydalıdır. Şabalıd su tarazlığının tənzimlənməsində, sinir hüceyrələrinin siqnalları ötürməsində, əzələlərin strukturunun qorunmasında çox əhəmiyyətlidir. Bundan başqa, o, qan dövranını sürətləndirir, bağırsağın fəaliyyətini tənzimləyir, qəbzliyin qarşısını alır. Şabalıdın enerjiverici qabiliyyəti də çox yüksəkdir: 3 ədəd şabalıdın enerjisi bir nazik çörək dilimindəki qədərdir. Ona görə də artıq çəkili və orqanizmində maddələr mübadiləsi zəif gedən insanlar şabalıd yeyəndə miqdarına diqqət etməlidirlər.

Şabalıdı bişirərək yeməyi sevənlər də ehtiyatlı olmalıdırlar. Belə ki, manqalda alova yaxın bişirilən şabalıd xərçəng xəstəliyinin yaranmasına şərait yarada bilər.

# Dünyanın məşhur manyakı öldü

Dünyanın ən məşhur manyakı - 68 yaşlı Robert Blek ölüb. O, Şimali İrlandiyanın həbsxanasında dünyasını dəyişib.

Robert Blek 1990-cı ildə həbs edilib. 1994-cü ildə isə ömürlük məhkum edilib. O, günün günorta vaxtı azyaşlı uşaqlara hücum edərək onları qəddarcasına öldürüb. Bunlar 9 yaşlı Cenifer Kardi, 11 yaşlı Syuzen Maksvel, 5 yaşlı Keropayn Hoq və 10 yaşlı Sara Harper Robert olub. Robert Şotlandiyada tutulub. Şahidlərdən biri onu 6 yaşlı qızı öz maşınına apararkən görüb.

Tarixdə isə dünyanın ən dəhşətli manyakı Andrey Çikatilo hesab olunur. O, 53 nəfəri qətlə yetirib. Sovet İttifaqının ən məşhur manyakı sayılan Çikatilo 1978-1990-cı illər ərzində fəaliyyət göstərib. Həm azyaşlı, həm də yeniyetmə oğlanları və qızları qətlə yetirən manyak daha çox maddi durumu çətin olan, evdən qaçan şəxsləri özünə hədəf seçirmiş.





# Bir nəfər üçün qatar xətti

Yaponiyanın Hokkaido adasındakı Kami Şirataki qatar stansiyasının yalnız bir nəfər üçün çalışması hər kəsi təəccübləndirir. Bir zamanlar işlək yer olsa da uzun illərdir mərkəzə uzaq olduğundan, oraya gedib-gələnlərin sayı azalıb. Uzun müddətdir ki, Kami Şirataki qatar stansiyasına heç kim gedib-gəlmir. Qatar xəttinin açıq saxlanılmasının səbəbi isə orta məktəbdə oxuyan bir qızdır. Adı açıqlanmayan qız martda məktəbdən məzun olduqdan sonra xətt bağlanacaq.

Xətti işlədən Yapon Dəmiryolları 3 il əvvəl vəziyyəti başa düşüb. Qatar xətti büdcəyə zərər versə də onun bağlanması orta məktəb şagirdinin məktəbə getməsinə əngəl olacağından maddi zərərinə baxmayaraq xətt açıq saxlanılıb. Hətta qatarın stansiyaya gediş-gəliş saatları qızın məktəb vaxtına uyğun təyin edilib.




**QOÇ** - Bir qədər gərgin gündür. Özünüzü istənilən təzyiq və təhlükələrdən qorumalısınız. Haqqınızın tapdanmasına yol verməyin. Yeri gəlsə, bu istiqamətdə sərt mövqe də nümayiş etdirin.

**BUĞA** - Təzadlı bir gün yaşayacağınız gözlənilir. Ulduzlar sizə qarşı bir neçə istiqamətdən təzyiqlər olacağını, həmçinin perspektivli təkliflər alacağınızı bildirir. Sövdələşmələrdə təşəbbüskar olun!

**ƏKİZLƏR** - Sevgi münasibətlərində bir qədər anlaşılmazlıqlar mümkündür. Çalışın ki, bu amil mübahisə həddinə çatmasın. Səhvlərinizi etiraf etməyi bacarın. Bunun sizə yalnız xeyri dəyə bilər.

**XƏRÇƏNG** - Məqsədlərinizi reallaşdırmaqda tənbəllik edirsiniz. Bu isə Göy qübbəsinin xoşuna gəlmir. Özünüzdə təpər tapın. Hər adama bel bağlamayın. Çünki bu dövrdə heç nə boş-boşuna əmələ gəlmir.

**ŞİR** - Risk etməkdən qorxmayın. Amma bilin ki, bu riski hansı məqsəd uğrunda edirsiniz. Başınızı qoruyun. Ulduzların düzümü şəxsi büdcənizdə müəyyən artımların olacağını bəyan edir.

**QIZ** - Astroloji göstəricilər nə qədər yeni simalarla rastlaşsanız, bir o qədər nailiyyət qazanacağınızı bəyan edir. Əgər işlə bağlı məşğul deyilsinizsə, axşam mütləq qonaq gedin.

**TƏRƏZİ** - İxtiyarınızda olan bu əsrarəngiz təqvimdə daha çox səhhətinizə fikir verməlisiniz. Nahardan sonra isə işgüzar sövdələşmələrə başlamaq, yeni əlaqələr yaratmaq xeyirlidir.

**ƏQRƏB** - Maddi firavanlığa qovuşmaq üçün geniş imkanlarınız var. Boş oturmağa çalışmayın. Pul qoxusu gələn istənilən ünvana və şəxsə müraciət edin. Qeybətcil adamlardan uzaq olun.

**OXATAN** - Bu təqvimi bürcünüz üçün həftənin ən düşərli günü kimi dəyərləndirmək olar. Əlalxüsus da əməkdaşlıq zəminində uğurlu məqamlarla rastlaşacaqsınız. Sizə aid olmayan işlərə müdaxilə etməyin.

**OĞLAQ** - Müntəzəm surətdə rastlaşdığınız şəxslərlə davranışlarınıza fikir verin. Özünüzü mehriban aparın. Qabiliyyətsiz adamlarla ünsiyyəti səngidin. Varlanmaq üçün imkan qazanacaqsınız.

**SUTÖKƏN** - Ailə zəminində müəyyən xoşagəlməzliklər gözlənilsə də, bu, yalnız günün birinci yarısını əhatə edəcək. Nahardan sonra isə xoş təsadüflərlə rastlaşacaqsınız. Axşam qonaq getməyə çalışın.

**BALIQLAR** - Şəxsi həyatınızda önəmli dəyişikliklər etmək istəyirsinizsə, bu gündən maksimum bəhrələnin. Aldığınız təklifləri düşünmədən rədd etməyin. Axşam təzə xəbərlər gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Selfi qadağan edildi



Dünyada selfi çəkərkən ölümlərin ən çox baş verdiyi ölkələrdən biri olan Hindistanın Bombey şəhərində ötən həftə daha iki nəfər eyni səbəbdən həyatını itirib. Şəkil çəkməyə görə, ölümlərin artması hökuməti hərəkətə keçirib və Bombeydə selfi çəkilməsi qadağan edilib. Bombey polisi şəhərdə selfi çəkərkən ölüm riskinin yüksək olduğu 16 nöqtə müəyyənləşdirib. Həmin yerlərdə xüsusi tədbirlər görülənə qədər selfi çəkilməsinə icazə verilməyəcək.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300